# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 34 (3500) Cümə axşamı / 21-27 sentyabr 2023-cü il Qiymәti 40 qәpik


MÜSAHİB

## “Bizi bəyənmirlərsə, yol açıqdır”

***Qarabağda erməni separatçılarının “humanitar böhran”, “seçki”, “etnik təmizləmə” oyunlarına “züy tutan” xarici təşkilatlar, xüsusilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin təşəbbüsü ilə Xankəndinə ərzaq və digər təsnifatlı yüklərin daşınmasına imkan yaradan Azərbaycan bölgədə sülhün bərqərar olunması, təhlükəsizliyin təminatı üçün ermənilərə bir daha növbəti son şansı tanıdı. 44 günlük müharibədə məğlub olan işğalçı dövlətin Azərbaycan ərazisində qalan tör-töküntüləri aparılan ərzaq yüklərini qəbul edəndən sonra yenə hərbi təxribatları, terror aktlarını davam etdirərək, beynəlxalq aləmə, Azərbaycana meydan oxudu, sülhü istəmədiklərini bir daha bəyan etmiş oldu.***



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

*Bunlar tarix boyu erməniləri müdafiə edib qoruyublar, özlərinin ərköyün övladı kimi saxlayıblar*

Səh. 3

MÜSAHİB



**Mehman Səlimov,**
Müdafiə nazirinin sabiq müavini, polkovnik

- Ermənilərin xeyli hissəsi Qarabağda qalıb yaşayacaq
- Putin Ermənistan hakimiyyətinə qarşı kəskin addımlar atsa, o halda 102-ci hərbi bazasının Gümrüdə qalması sual altında olacaq
- Qarabağdakı qanunsuz separatçı-terrorçu rejimin ləğvi ilə Zəngəzur dəhlizinin açılmasına aparan yolla Ermənistan da udur...

Səh. 3

# Azərbaycan öz suverenliyini bərpa etdi

***Prezident İlham Əliyev Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu antiterror əməliyyatları ilə bağlı xalqa müraciət edib. Dövlət başçısı bundan sonrakı dövrdə gözləntilər, Ermənistanla sülh danışıqları, Qarabağdakı ermənilərin reinteqrasiya prosesi və digər mühüm məsələlərə toxunub.***

***“Dünən təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir”, - Prezident İlham Əliyev xalqa müraciətində bildirib. Antiterror tədbirləri nəticəsində hərbçilərimizin böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdiklərini qeyd edən dövlətimizin başçısı deyib:***



“Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır”.

### 300-dən çox vətəndaşımız mina terrorunun qurbanı olub

**Dövlət başçısı bildirib ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olmuşdur. Son terror aktı bu sıradan olan hadisə idi.** Dövlətimizin başçısı bildirib ki, “Laçın” sərhəd-buraxılış məntəqəsi qurulmayana qədər İkinci Qarabağ müharibəsindən sonra Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz olaraq minalar gətirilmiş və müxtəlif yerlərdə basdırılmışdır. Bir müddət bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri tərəfindən aşkarlanmış minalar Rusiya sülhməramlı kontingentinin və Rusiya-Türkiyə Monitorinq Mərkəzinin nümayəndələrinə göstərilmiş və onlardan ciddi tədbir görülməsi tələb edilmişdir. Bu minalar 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardır. Bu, bir daha onu göstərir ki, bu minalar İkinci Qarabağ müharibəsindən sonra Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün məqsədyönlü şəkildə gətirilmişdir”.

### Hərbi birləşmələrə ciddi tapşırıqlar verilmişdi

**Prezident deyib ki, əməliyyat başlamazdan əvvəl onun tərəfindən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır.**

“Biz həm yüksək dəqiqliyə malik olan silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda, göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır”, - deyən dövlətimizin başçısı vurğulayıb ki, Ordumuzun peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratdı.

### Şəhidlərimizin əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq

**“Əfsuslar olsun ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgər, zabitlərimiz olub. Allah onlara şəfa versin”, - Prezident İlham Əliyev xalqa müraciətində deyib.** Onların Vətən yolunda, haqq-ədalət yolunda, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etdiklərini vurğulayan dövlətimizin başçısı şəhidlərin əziz xatirəsinin qəlbimizdə əbədi yaşayacağını bildirib.

### Qarabağ Azərbaycan ərazisidir

**Dövlət başçısı deyib ki, Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb.**

“Əgər vaxtilə “Qarabağ Ermənistandır və nöqtə” deyirdisə, indi “Qarabağ Azərbaycandır” deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, öz xoşu ilə bunu etməyib, “dəmir yumruq” hesabına bunu etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı statusu ola bilər? Hansı dövlət atributları ola bilər? Hansı seçkilər ola bilər?”, - deyə dövlətimizin başçısı vurğulayıb.

### Bölgəmizdə yeni vəziyyətin yaranması labüddür

Bölgəmizdə yeni vəziyyətin yaranmasının labüd olduğunu diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib: “Çünki kriminal xunta rejimi təslim olandan sonra artıq bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər”.

"Mən bunu demişəm, bir daha demək istəyirəm, Qarabağdakı erməni əhali bizim vətəndaşlarımızdır”, - Azərbaycan Prezidenti xalqa müraciətində bildirib. Dövlət başçısı qeyd edib ki, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası “rəhbərləri” o insanları (Qarabağın erməni əhalisini - red.) girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi.

Səh. 2

GÜNÜN FOTOSU...



**Xankəndidəki ermənilər Xocalı hava limanına toplaşdı**

GÜNÜN SİTATI

*“Biz fəxrlə Can Azərbaycanın haqlı Qarabağ mübarizəsində yanındayıq”*



**Selçuk Bayraktar,**
Türkiyənin “Baykar” şirkətinin texniki dirktoru

KARİKATURA




**Ancaq belə ağıllanıram**

## 27 Sentyabr - Zəfər yolunun başlanğıcı

**Qabil Hüseynli,**
politoloq

Cəsarətləri çatıb ərazilərimizin 20 faizini işğal etmiş dövlətlərə “təcavüzkar dövlət” belə, deyə bilmirdilər.

Səh. 6

STATİSTİKA



**Azərbaycanda qoyunlar, keçilər, atlar, eşşəklər, camışlar və donuzların sayında azalma müşahidə olunub. 2022-ci ildə qoyunların sayı 7.314.166 başdan 7.170.828 başa enib.**

Keçilər 585.520 başdan 580.840 başadək azalıb. Camışlar 60.781 başdan 56.966 başa düşüb. Eşşəklər 21.047 başdan 20.020 başadək azalıb. Atların sayı 58.396 başdan 56.576 başa enib. Donuzların sayı 5.954 başdan 5.130 başa düşüb. Dəvələrin sayı isə əksinə, 332 başdan 357 başas yüksəlib. İnəklərin də sayı 1.227.215 başdan 1.231.862 başadək çoxalıb.



Səh. 5

## Xarici ticarətdə müsbət saldo azalıb

**PREZİDENTİN İŞ GÜNÜ**

# Azərbaycan öz suverenliyini bərpa etdi



◂ əvvəli 1-ci səhifədə

Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdu, onların beyinlərini zəhərləmişdi.

"Mən əminəm ki, Qarabağda yaşayan erməni əhali tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur", - deyə Prezident İlham Əliyev diqqətə çatdırıb.

### Biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq

**"Bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq", dövlət başçısı söyləyib.**

İlham Əliyev qeyd edib: "Biz Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin, dağıdılmasında, qəbirlərin qazılmasında erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranları ittiham etmişik. Biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıb, bəziləri də alacaqlar".

### Qarabağda yaşayan sadə insanlar üçün tarixi şans

**Prezident bildirib ki, bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər.**

Dövlət başçısı qeyd edib ki, biz buna hazırıq və Azərbaycan xalqı bilir. Əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul ediləcək. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa və gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir.

"Azərbaycan azad cəmiyyətdir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir", - Azərbaycan Prezidenti bildirib. Dövlət başçısı vurğulayıb ki, Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu, bizim həyat tərzimizdir.

"Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq, ikinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi - Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə biz Qarabağda yaşayan erməni əhalisini bax buna dəvət edirik", - dyə dövlətimizin başçısı əlavə edib.

### Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz

**"Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyi güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər bizdən əl çəksinlər", - Prezident söyləyib.**

Cənubi Qafqazın əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olduğunu xatırladan dövlətimizin başçısı bildirib: "Yetər artıq! Biz bunu tələb edirik".

Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqenin ümidlər verdiyini deyən Prezident İlham Əliyev Azərbaycanın və Ermənistanın öz aralarında olan məsələləri tənzimləyəcəyi, sülh müqaviləsi imzalayacağı və Cənubi Qafqaz ölkələrinin üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqları günün uzaqda olmadığına ümidvar olduğunu vurğulayıb.

Dövlətimizin başçısı bizə xor baxanlara da xəbərdarlıq edərək deyib: "Onu da bildirməliyəm, bizə xor baxanlar, torpağımıza göz tikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq!

Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Bir günlük antiterror əməliyyatı



***A**zərbaycanın Ermənistana və 44 günlük savaşdan sonra Qarabağ ərazisində gizlənən xunta rejiminə dialoq təklifinin limiti bitdi. Azərbaycanın sülh təklifinə hərbi təxribat, terrorla cavab verən ermənilərlə sentyabrın 19-da növbəti dəfə başa düşdükləri dildə danışıldı. Mina terroru nəticəsində 9 şəhid verən Azərbaycan antiterror əməliyyatına başladı. Bur gün davam edən əməliyyat separatçıların təslim olması və Bakının şərtlərini qəbul etməsi ilə yekunlaşdı.*

## Gündəm

Sentyabr əks-hücum əməliyyatının III ilinə bir həftə qalmış Azərbaycanın Qarabağda başladığı lokal əməliyyatın səbəbləri barədə "Həftə içi"nə danışan hərbi və siyasi ekspertlər məsələyə birmənalı yanaşdılar.

■ **Milli Məclisin deputatı Mahir Abbaszadə bəyan edib ki, 44 günlük II Qarabağ müharibəsində Ermənistan kapitulyasiya aktına imza ataraq, qeyri-qanuni silahlı birləşmələrini ərazilərimizdən çıxarmalı idi.** Məlum




10 Noyabr üçtərəfli Bəyannaməsinin IV bəndinin icra edilməsinə cavabdehlik daşıyan rus sülhməramlıları bu prosesi icra etməli idi. Lakin müharibədə əldə etdiyimiz qələbədən 3 il keçməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələri nəinki Qarabağ bölgəsindən çıxarıldı, əksinə əlavə silah-sursatla təmin edildi. Azərbaycanın Qarabağ bölgəsində gediş-gəliş yolları minalandı və Ermənistan tərəfi bölgədə hərbi riski artırmaq üçün durmadan işlər apardı. Azərbaycan Qarabağda yaşayan erməni icmasının rəhbərlərinə, ermənilərə dəfələrlə müraciət edərək onları revanşist niyyətlərindən əl çəkib, danışıqlara dəvət etdi. Azərbaycan Qarabağda baş verən gərginliyin aradan qaldırılması, azərbaycanlılarla ermənilərin birgə yaşayışını təmin edəcək reinteqrasiya prosesinin normal davam etməsi və məsələnin ikitərəfli danışıqlar yolu ilə həllini tapması üçün əlindən gələni etdi. Azərbaycan işğala məruz qoyulan tərəf olsa da, dəfələrlə bu istiqamətdə addımlar atıb. Təəssüflər olsun, Qarabağda yaşayan və fəaliyyət göstərən erməni xunta rəhbərliyi bu danışıqlara laqeydlik nümayiş etdirir, əvəzində erməni silahlı qüvvələrini sayını artırmaqla, yeni silahlar alıb, təxribatlar törətdilər. Bunun son nümunəsi Qarabağda diversiya qrupu tərəfindən Xocavənd rayonu ərazisində Füzuli-Şuşa yoluna minaların basdırılması və burada Azərbaycan Silahlı Qüvvələrinə aid olan insanların, eyni zamanda, Avtomobil Yolları Agentliyi işçilərinin minaya düşməsi, şəhid olmaları faktıdır.

M.Abbaszadə bildirib ki, Azərbaycan birtərəfli qaydada sülhü təmin edə bilməz və artıq Qarabağda lokal antiterror əməliyyatları başlamalı idi. Deputat bir daha bəyan edib ki, Qarabağ Azərbaycan ərazisidir, bu ərazilərdə digər ölkənin silahlı birləşməsi olmamalıdır:

"Azərbaycanın Qarabağda keçirdiyi lokal antiterror əməliyyatları bu ərazilərdə fəaliyyət göstərən erməni silahlı birləşmələrinin tərk-silah edilməsinə hesablanıb və Azərbaycan Ordusunun apardığı antiterror əməliyyatları mülki şəxslərə qarşı yönəlməyib. Hərbi istehkamlar və hərbi obyektlər dağıdıldı. Qarabağ Azərbaycanın hüquqi ərazisidir, bütün ərazilərimizdə Azərbaycan qanunları işləməlidir".

M.Abbaszadə, eyni zamanda, Qarabağ İqtisadi Rayonunun bütün ərazisində aparılan hərbi əməliyyatların Qarabağda, sərhədlərimizdə davamlı təhlükəsizliyin və sülhün əbədi olmasına hesablandığını qeyd edib. Bu əməliyyatlar nəticəsində bütövlükdə bu ərazilərdə Aərbaycan qanunlarının, Azərbaycan hakimiyyətinin, Azərbaycan Konstitusiyasının təmin edilməsinə nail ola biləcəyik.

M.Abbaszadə antiterror əməliyyatlarının Qarabağa, Qarabağ İqtisadi Rayonuna, Şərqi Zəngəzur İqtisadi Rayonuna köçürülən insanların təlükəsizliyini ən yüksək səviyyədə təmin edəcəyini əminliklə bildirib.

"Azərbaycan Dövləti antiteror əməliyyatları ilə torpaqları işğaldan azad etdikdən sonra, sürətli bərpa-quruculuq prosesi qarşısındakı təhlükəni aradan qaldırmış olacaq. Bu gün keçirilən antiterror əməliyyatlarının bərpa-quruculuğun həyata keçirilməsində iştirak edən şirkətlərin, işlə təmin olunan insanların bu ərazilərdə rahat, təhlükəsiz fəaliyyətini davam etdirmələri üçün mühüm əhəmiyyət daşıyır.

Bununla da Azərbaycan Dövləti Qarabağda, Şərqi Zəngəzurda quruculuq prosesində iştirak edən insanların, həmçinin qaçqın və məcburi köçkünlərin daimi ata-baba yurdlarına köçüb-yaşaması üçün təhlükəszlik tədbirlərinin həyata keçirilməsini təmin edəcək".

> *"Bu əməliyyatlar nəticəsində bütövlükdə bu ərazilərdə Aərbaycan qanunlarının, Azərbaycan hakimiyyətinin, Azərbaycan Konstitusiyasının təmin edilməsinə nail ola biləcəyik*
>
> *Kim yaşamaq istəməyəcək, onların ölkəni tərk etmələri təmin olunacaq*
>
> *Regionda Azərbaycana qarşı gizli oynayan dövlətlər "kartlarını" açdılar*

■ **Hərbi ekspert Şair Ramaldanov isə bildirib ki, son zamanlar istər şərti sərhədlərdə, istərsə də Rusiyanın sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi ərazilərdə vəziyyət gərginliyə doğru inkişaf edirdi.** Atəşkəsin pozulması, təxribatların törədilməsi və son olaraq yol şirkəti işçilərinin qazıntı apardığı ərazilərdə mina terroruna məruz qalması antiterror əməliyyatının keçirilməsini zəruri etdi. Azərbaycanın çoxsaylı xəbərdarlıqlarına, prosesin sülh, danışıqlar yolu ilə həll edilməsi ilə bağlı təkliflərinə baxmayaraq, Ermənistan və havadarları qeyri-qanuni erməni silahlılarının tərk-silah edilməsini həyata keçirməməklə vəziyyəti gərginləşdirməklə Azərbaycan ərazisində irimiqyaslı əməliyyatların baş verməsinə şərait yaratdılar.

Ş.Ramaldanov bildirir ki, Azərbaycan öz ərazilərində gələcək təxribatların qarşısını almaq, erməni sakinlərini xunta girovluğundan azad etmək, üçtərəfli sazişin 4-cü bəndini yerinə yetirmək məqsədilə bu əməliyyatları həyata keçirməli idi və bu proses nəhayət başladı:"Bununla da Azərbaycan ərazisində təhlükə mənbəyini, terror yuvasını darmadağın edəcək. Yalnız bundan sonra reinteqrasiya prosesi başlayacaq və bütün ərazilərdə Azərbaycan Bayrağı dalğalanacaq, Azərbaycan qanunları işləyəcək. Eləcə də azad olunan ərazilərdə erməni sakinlərinin təhlükəsizliyi təmin ediləcək. Kim yaşamaq istəməyəcək, onların ölkəni tərk etmələri təmin olunacaq. Azərbaycanda cinayətlər törətmiş şəxslər həbs olunub, cinayət məsuliyyətinə cəlb ediləcəklər".

■ **"Xankəndi terror yuvasından təmizlənməlidir. Faşizmi təmizləmək, ölkəyə demokratik islahatlar gətirmək lazımdır".** Bunu hafta.az-a hüquqşünas, siyasi ekspert Əli Mustafa 27 sentyabr tarixi ərəfəsində ermənilərin Xocavənddə törətdiyi terror nəticəsində Azərbaycanın 9 şəhid verməsi və bundan sonra antiterror əməliyyatlarına başlaması ilə bağlı bildirib.

Ekspert qeyd edib ki, sentyabr ayı dağlarda döyüşlərin aparılması üçün iqlimin ən münasib vaxtıdır: "Bu gün antiterror əməliyyatının aparılması zəruridir. Qarabağ terror yuvasına çevrilib. Biz Qarabağda erməni faşizmini təmizləməli, daxili qanaxmanın Azərbaycanda ciddi fəsadlar törətməsinə imkan verməməliyik. Qarabağ problemi qaldıqca biz ölkənin içərisində normal düzənimizi qura bilmir, əhalinin zəngin bir dövlətdə rahat yaşamaq istəklərini həyata keçirə bilmirik. Ordumuzun qalibiyyəti tam, bütöv olmalıdır". Ə.Mustafa, eyni zamanda, 3 il geriyə, 2020-ci il 27 sentyabr əks-hücum əməliyyatına diqqət çəkərək, onun beynəlxalq müstəvidəki əhəmiyyətini vurğulayıb:

"Qarabağın azad olunması üçün apardığımız əməliyyatlar regionda geosiyasi vəziyyəti dəyişdi. Bizimlə daim hədə-qorxu dilində danışan Ermənistan, artıq bu mövqeyini itirib və Rusiya ilə İran bu prosesdə önə çıxmalı olub. Regionda maraqları olan bu dövlətlərin qarşısına Türkiyənin çıxması, eləcə də İsrailin, Pakistanın dəstəyi bölgədə fərqli bir situasiya yaradıb.

Azərbaycan əhəmiyyətli qələbə qazanmaqla beynəlxalq aləmdə mövqeyini dəyişib. Ölkənin beynəlxalq nüfuzu artıb və bizimlə hədə-qorxu dilində danışanlar bir qədər ritorikalarını dəyişiblər. Digər tərəfdən, regionda Azərbaycana qarşı gizli oynayan dövlətlər "kartlarını" açdılar. Bu, İranın buradakı şəbəkəsinin hədəflənməsini şərtləndirbi". Ə.Mustafa Azərbaycan diplomatiyasının, eləcə də Ordunun qorxmadan irəliləməsinin əsas bazasında 27 sentyabrda başlanan 44 gündə zəfərlə nəticələnən Vətən Müharibəsinin önəmli, mühüm rol oynadığını vurğulayıb.

## Qarabağın erməni sakinlərinin reinteqrasiya planı hazırdır

**Ermənistan Azərbaycana qarşı ərazi iddiasından əl çəkməlidir. Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Xarici İşlər Nazirliyində Bakıda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri üçün brifinqdə deyib.**



**Hikmət Hacıyev,**
Azərbaycan Prezidentinin köməkçisi

"Həmçinin Azərbaycan ərazisində Ermənistanın hərbi qüvvələri qalmamalıdır. Antiterror tədbirləri onu göstərdi ki, Ermənistanın hərbi qüvvələri Azərbaycan ərazisində qalmaqda idi. Bütün bunların pis nəticəsidir ki, Şuşa şəhəri dünən ağır artilleriya ilə bombalanıb və bir nəfər mülki vətəndaş həlak olub",- deyə H.Hacıyev bildirib.

Bəzi dövlətlərin bizə qarşı çevik bəyanatları bizi narahat edir. Hikmət Hacıyev deyib. O, qeyd edib ki, bütün bunlara rəğmən, beynəlxalq ictimaiyyət və tərəfdaşlarımız bu məsələlərlə bağlı daimi məlumatlandırılır: "Azərbaycan Respublikasının legitim narahatlığı onların diqqətinə çatdırılırdı. Əfsuslar olsun ki, birtərəfli bəyanatların sülh gündəliyinə xidmət etdiyini düşünmürük".

Prezidentin köməkçisi BMT-nin hər hansısa bir aləti tətbiq etməyinə ehtiyac olmadığını düşündüyünü bildirib. O, qeyd edib ki, bu cür mühüm məsələlər yerlərdə lokal səviyyədə həll tələb edir: "Belə bir iclas çağırılarsa, heç də xeyirli və səmərəli olmayacaq. Biz istəməzdik ki, bu kövrək vəziyyət daha da pisləşsin. Yəni bu iclasın keçirilməsinə ehtiyac yoxdur. Olarsa, Azərbaycan öz legitim narahatlığını ifadə etməyə hazırdır".

### Müzakirələrin harda edilməsi yox, nə müzakirə edildiyi önəmlidir

Sülh sazişi Azərbaycanın təşəbbüsü olub. Hikmət Hacıyev vurğulayıb. "Sülh sazişinin mətni hazırlanaraq qarşı tərəfə təqdim edildi. Müzakirələrin harda edilməsi yox, nə müzakirə edildiyi önəmlidir. Sülh sazişi ilə bağlı 70% məsələ razılaşdırılıb ",- deyə H.Hacıyev bildirib. Mülki əhaliyə zərər gəlmədi, amma gələn məlumatlar təkrar yoxlanır, çox minimal zərərlər olmuş ola bilər. Azərbaycan Prezidentinin köməkçisi deyib. O qeyd edib ki, antiterror tədbirləri SMS vasitəsilə Qarabağ sakinlərinə xəbərdarlıq formasında göndərilmişdi: "Məqsəd mülki əhalini hərbi obyektlərdən uzaq tutmaq idi. Görünən o oldu ki, hərbi obyektlər mülki əhalinin yaşadığı yerə yaxın yerləşdirilməyə başlanıldı. Biz isə mülki əhaliyə hörmət olaraq, həmin ərazilərə zərbələr endirilmirdi".

Prezident Administrasiya tərəfindən göndərilən dəvət, əfsus ki, separatçı rejim tərəfindən imtina edilirdi. Hikmət Hacıyev Xarici İşlər Nazirliyində Bakıda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri üçün brifinqdə deyib. O qeyd edib ki, Qarabağın erməni sakinlərinin sosial-iqtisadi inteqrasiyası Azərbaycanın daxili məsələsidir. Prezidentin köməkçisi diqqətə çatdırıb ki, Qarabağın erməni sakinlərinin geniş formada sosial-iqtisadi inteqrasiyası üçün plan hazırdır və bu müvafiq aidiyyət qurumlarla hazırlanıb.

***Tahirə Qafarlı***

# "Bizi bəyənmirlərsə, yol açıqdır"

***Qarabağda erməni separatçılarının "humanitar böhran", "seçki", "etnik təmizləmə" oyunlarına "züy tutan" xarici təşkilatlar, xüsusilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin təşəbbüsü ilə Xankəndinə ərzaq və digər təsnifatlı yüklərin daşınmasına imkan yaradan Azərbaycan bölgədə sülhün bərqərar olunması, təhlükəsizliyin təminatı üçün ermənilərə bir daha növbəti son şansı tanıdı. 44 günlük müharibədə məğlub olan işğalçı dövlətin Azərbaycan ərazisində qalan tör-töküntüləri aparılan ərzaq yüklərini qəbul edəndən sonra yenə hərbi təxribatları, terror aktlarını davam etdirərək, beynəlxalq aləmə, Azərbaycana meydan oxudu, sülhü istəmədiklərini bir daha bəyan etmiş oldu.***



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

## Müsahib

Ermənilər Xocavənd ərazisində mina terrorunu gerçəkləşdirdi və 9 nəfər - 2 mülki, 7 hərbçi şəhid oldu. Beləliklə, Azərbaycan hansı zəruri addımları atmağa məcbur oldu və beynəlxalq ictimaiyyətin buna sözü nədir?

Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən **Milli Məclisin deputatı Elman Məmmədov** mühüm məqamlara toxunub.

***- Ermənistan, Qarabağdakı separatçı rejim Azərbaycanın onlara yaratdığı böyük şansdan niyə düzgün istifadə edə bilmədi və başqasının ərazilərində cinayətləri törədərkən kimlərin himayəsinə ümid bəslədilər?***

- Azərbaycan uzun müddət ermənilər başa salmağa çalışdı ki, Qarabağ Azərbaycandır və nida işarəsi... Bunlar başa düşmədilər və təkidlə müxtəlif vasitələrlə Azərbaycanın daxili işlərinə müdaxiləni davam etdirmək niyyətində oldular. Ermənilər və onların xarici havadarları son 3 il ərzində də Laçın yolundan və başqa istiqamətlərdən Azərbaycan ərazilərinə - Qarabağa sərbəst yüklər daşımaq, gedişgəlişi təşkil etmək niyyətində oldular. Elə bildilər ki, Azərbaycan ərazisi bunlar üçün karvansaraydır və bunlar istədikləri vaxt gəlib-gedə bilərlər, nə istəsələr aparıb gətirə bilərlər. Laçında sərhəd-keçid buraxılış məntəqəsi yaradılmaqla 23 aprel 2023-cü ildə bu məsələlərə son qoyuldu. Elə həmin andan da ermənilərə başa salındı ki, bu yoldan ancaq Beynəlxalq Qırmızı Xaç Komitəsi humanitar məqsədlər üçün istifadə edə bilər. Mən bu təşkilata "Beynəlxlaq erməni Qırmızı Xaç Komitəsi" adını qoymuşam. Sonradan həmin qurumun yükləri yoxlananda məlum oldu ki, bu təşkilat da elə həmin cinayətkar rejimlə əlbirdir və cinayətkarları daşımaqla, qaçaqmalçılıqla məşğuldurlar. Onların fəaliyyəti məhdudlaşdırıldı. Sonradan deyildi ki, sizin bir alternativ yolunuz var, o da Ağdamdan Xankəndi istiqamətinə gedir, buradan ərzaq yardımları keçə bilər. Bundan imtina etsələr də, sonda qəbul etdilər. Həmin o komitənin bir neçə minik, yük maşını Xankəndinə yollandı, Rusiyadan gələn yardımlar keçdi. Bu, bir tərəfdən ermənilərin nazı ilə oynamaq idisə, ikinci tərəfdən, Azərbaycan ermənilərə, havadarlarına və bütün dünyaya bununla bəyan edirdi ki, heç kim üçün blokada yaratmamışıq və heç kimin orada acından ölməsini istəmirik. Təbii ki, Xankəndidə nə aclıq, nə də blokada var idi. Yəni biz onlara deyirik: "Sən bizim ərazimzdə yaşayırsan, bura bizim Vətənimizdir, vətəndaşlığımızı qəbul edib, qanunlarımızla yaşamalısan. Bizi bəyənmirsənsə, yol açıqdır. Laçın-Xankəndi yolu bir tərəfə - Ermənistan istiqamətinə işləyə bilər. Əgər mənimlə birgə yaşamaq istəmirsənsə, gedə bilərsən. Bunlar daha da azğınlaşmağa başladı. Təxribatların, terror hadisələrinin sayı artdı. Son günlər törətdikləri terror hadisələrində 9 nəfər şəhid oldu, neçə nəfər yaralandı. Bu, artıq son hədd idi. Nəticəsi qaçılmaz idi. Bir daha məlum oldu ki, erməni sözlə, danışıqla başa düşmür, onu güclə başa salmaq lazımdır. Azərbaycan öz qanunlarımıza, beynəlxalq hüquq normalarına, BMT Nizamnaməsinin müvafiq bəndlərinə istinad edərək ərazilərimizdən separatçıları, işğalçıları, terrorçuları təmizləməlidir. Bütün bunlara istinad edərək, 19 sentyabr 2023-cü il tarixində lokal antiterror əməliyyatlarına başladı. Bu əməliyyatlar sırf ərazimizdə mövcud olan, fəaliyyət göstərən separatçılara, Ermənistan dövlətinə məxsus qeyri-qanuni hərbi birləşmələrə, terrorçulara, quldurlara qarşıdır. Mülki əhaliyə, obyektlərə toxunulmur, dinc mülki yaşayış yerləri Azərbaycan Ordusu tərəfindən qorunur. O cümlədən mülki əhaliyə şərait yaradılır, xəbərdarlıq edilir ki, hərbi əməliyyatlar gedən yerlərdən, qanunsuz hərbi cinayətkarlardan, hərbi obyektlərdən uzaq dursunlar.

***- Azərbaycana qarşı diversiya, terror hərəkətləri törədən erməni separatçılar kimə güvənirdi?***

- Birinci Dünya müharibəsi dövründə həmin bu dövlətlər ermənilər silahlandırdılar. Hələ tək Fransa, Rusiya tərəfindən 250 min osmanlı ermənisi silahlandırılmışdı. Məqsəd Osmanlını daxildən çökdürüb darmadağın etmək idi. Ermənilərə vəd edilmişdi ki, onlara böyük Ermənistan dövləti yaradacaqlar. Sonu tarixdən məlumdur. Bu gün də Böyük Britaniyanı çıxmaq şərtilə yenə həmin oyunçular ermənilərə şirin vədlər verir. Makron və onun kimilər, ABŞ Dövlət Departamentinin Senatı, Avropa Parlamenti, Avropa İttifaqı, BQXK kimi təşkilatlar erməniləri şirnikləndirirlər. Məsələn, görün, ABŞ Senatı, Fransa və digər birliklər bizdən nə tələb edir: deyirlər ki, siz niyə işğalçılara qarşı bu qədər dözümsüzsünüz? Separatçılara qarşı dözümlü olun. Siz niyə razı olursunuz ki, separatçılar orada ərzaqdan, tibbi xidmətdən, silah-sursatdan korluq çəksinlər? Belə etməyin, imkan verin, onların ərzağı da bol olsun, silah-sursatı da və sizə qarşı təxribatlar törətsinlər, sizə qarşı yaxşı döyüşsünlər. Bundan da iyrənc tələb və yaxud irad olarmı?! İndi həmin dövlətlərin özlərinə həmin sualı ünvanlamaq lazımdır: sizin ərazinizdə belə bir separatçı qurum olsa və yaxud sizin ərazinizdə qeyri-dövlətin işğalçı silahlı birləşmələri olsa, siz buna dözərsinizmi? Təbii ki, yox! O zaman siz niyə bunu bizə rəva görürsünüz?! Biz də müstəqil dövlət kimi qanuna, hüquqa əsaslandıq və dedik ki, artıq kifayətdir! Separatçılar da, qeyri-qanuni silahlı birləşmələr də ərazimizdən təmizlənəcək.

> *Bunlar tarix boyu erməniləri müdafiə edib qoruyublar, özlərinin ərköyün övladı kimi saxlayıblar*

> *Erməni sözlə, danışıqla başa düşmür, onu güclə başa salmaq lazımdır*



***- Rusiyanın açıqlamalarına baxanda hansı mövqe sərgiləndiyini söyləmək olar?***

- Rusiyanın tarixi mövqeyi bəlli idi. Neçə yüz ildir erməniləri müxtəlif ərazilərdən yığıb ərazilərimizdə yerləşdirib, Ermənistan dövləti yaradan Çar Rusiyası olub, sonra Sovetlər İttifaqı olub, bu gün də onların davamçısı Rusiya Federasiyasıdır. Bunlar tarix boyu erməniləri müdafiə edib qoruyublar, özlərinin ərköyün övladı kimi saxlayıblar. Son nəticədə ruslar onun şahidi oldular ki, necə ki, rusların xatirinə 100 il əvvəl ermənilər Osmanlıya, digər dövlətlərə xəyanət etdi, bu gün də Rusiyaya xəyanət etdi. Avropa missiyasını dəvət etdilər, Fransanı gətirdilər, ABŞ-ı dəvət elədilər.

KTMT-dan çıxmaqla bağlı oradakı nümayəndələrini geri çağırdılar. Rusiya baxdı ki, bu xəyanətkarlıq bunların genindədir. Bunlar islaholunmaz bir toplumdur. Belə olan halda Rusiya bəyan etdi ki, biz ədalətli mövqe tutacağıq. Azərbaycan öz ərazisində antiterror əməliyyatları keçirir, bu, Azərbaycan ərazisidir, Rusiyanın buna qarışmağa haqqı yoxdur, qarışmır. Rusiyanın yalnız Qarabağda olan sülhməramlı əsgərlərinə xətər toxunmasın. Azərbaycan Ordusu da öz işini bilir. Bu məqamda Rusiya Azərbaycan tərəfdən çıxış etmir, nəhayət ki, məsələdə ədalətli mövqe tutur. Rusiya fikirləşir ki, Şimali Qafqazda da həmin separatizm, həmin itaətsizlik yaranmışdı. Rusiya Şimali Qafqazda uzun illər antiterror əməliyyatları keçirdi. Kimsə onun işinə qarışmadı. İndi Rusiyaya deyirik: sizin işinizə qarışmadığımız kimi, siz də bizim işimizə qarışmayın. Rusiya bu ana qədər hələlik ədalətli mövqeyini saxlayır. Arzulunandır ki, belə ədalətli dayana bilsin.

***- Azərbaycanın keçirdiyi antiterror əməliyyatı beynəlxalq müstəvidə necə qarşılandı?***

- Beynəlxalq təşkilatların, bir sıra dövlətlərin erməni məsələsində Azərbaycana təsirlərinin intensivləşdiyi bir vaxtda antiterror əməliyyatlarının başlanması cəsarətli bir addımdır. Ona görə ki, biz haqlıyıq. İndi Fransanın israrlı təklifi ilə sentyabrın 21-də BMT Təhlükəsizlik Şurasının iclası keçiriləcək. Təbii ki, Fransa burada böyük canfəşanlıqla Azərbaycana qarşı hansısa sanksiyanın, qərarın qəbul edilməsinə nail olmaq istəyəcək.

Azərbaycanın özünü müdafiə etmək üçün sözü var: biz heç kimin ərazisinə müdaxilə etmirik, heç bir dövlətə qarşı müharibə aparmırıq, öz ərazimizdə lokal antiterror əməliyyatları keçiririk. Mülki əhaliyə toxunmuruq, ərazimizdə kök salmış Ermənistan dövlətinə məxsus hərbi birləşmələri təmizləmək, separatçıların kökünü kəsmək üçün antiterror əməliyyatı aparırıq. Bu, beynəlxalq hüququn bütün normalarına uyğundur. Bu, həmin BMT Nizamnaməsinə, Azərbaycan qanunlarına, eləcə də Fransanın da qanunlarına uyğundur. Yəni əgər Almaniyanın, İspaniyanın qoşunları Fransanın ərazisinə girsə, bu dövlət onlara qarşı mütləq antiterror əməliyyatı aparacaq. Biz də bunu edirik, burada qeyri-adi heç bir şey yoxdur.

BMT və Avropada qeyri-müəyyən qurumlar var ki, onlardan ədalətli mövqe gözləyirik. Ədalətli mövqe sərgiləməyəcəyini də bilirik.

*Tahirə Qafarlı*

## Müsahib

***Müdafiə nazirinin sabiq müavini, sovet dövründə xeyli müddət Ermənistandakı qoşunların tərkibində yüksək hərbi vəzifələrdə çalışdığından hayların bir etnopsixoloji xarakterinə yaxşı bələd olan polkovnik Mehman Səlimovla hafta.az üçün bu dəfəki söhbətimizdə əsasən Azərbaycan Silahlı Qüvvələrinin Qarabağın dağlıq hissəsindəki separatçı-terrorçu rejimə qarşı keçirdiyi son lokal antiterror əməliyyatının bölgədə yaratdığı hərbi-siyasi situasiyadan, Qarabağdakı ermənilərin bundan sonra Azərbaycana reinteqrasiyasının perspektivlərindən bəhs etdik.***



**Mehman Səlimov,**
Müdafiə nazirinin sabiq müavini, polkovnik

# Moskva susmağa məcbur oldu

***- Mehman müəllim, Azərbaycan Silahlı Qüvvələrinin Qarabağın dağlıq hissəsindəki separatçı-terrorçu rejimə qarşı keçirdiyi 24 saatlıq lokal antiterror əməliyyatının nəticələrini necə dəyərləndirirsiz?***

- Çox sevinirik ki, dövlətimizin çox uyğun bir məqamda keçirdiyi qısamüddətli lokal hərbi əməliyyat sayəsində, yenə də şəhid və qazilərimizin canı, qanı hesabına uzun onilliklər Azərbaycan daxilində xərçəng yarasına çevrilmiş separatizm bəlasına, demək olar ki, son qoyduq. Əsas odur ki, ağ bayraq qaldırdılar. Və bir sıra strateji nöqtələri birbaşa nəzarətimizə götürdük... Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin...

***- Bəs sizcə, nə baş verdi ki, "sülhməramlı" qüvvələri Qarabağda olan Moskvadan bizə qarşı səs çıxmadı, həmişə sülh danışıqları ərəfəsində olduğu kimi, heç Ermənistanla sərhəddə də heç bir təxribat-filan baş vermədi?***

- Bəli, "sülhməramlı"ları ərazidə olan Rusiya da susmağa məcbur oldu. Çünki Kremldəkilər yaxşı anladı ki, əgər indiki şəraitdə Amerika, Fransa məsələyə daha ciddi müdaxilə etsə, Rusiyaya artıq Cənubi Qafqazda yer qalmayacaq. Ona görə də Moskva Azərbaycan ordusunun öz suveren ərazisindəki işğalçı və qanunsuz silahlı birləşmələrə qarşı antiterror əməliyyatı əleyhinə səsini çıxarmadı. Paşinyan isə açıq-açığına dedi ki, mən kiməsə görə Azərbaycanla müharibə aparan deyiləm. O da ağıllı addım atdı. Bunlar hamısı hesablanmış gedişlər idi. Onsuz da Paşinyan heç nə edə bilməzdi. O, hakimiyyətdən devrilə bilərdi...

İndi, bundan sonra bir əsas vacib vəzifəmiz qalır. Ermənistanın 30-35 illik işğal, soyqırım və deportasiyalar nəticəsində Azərbaycana vurduğu ziyan hesablanıb- bildiyimə görə, təxminən 40 milyard ABŞ dollarıdır. Hesab edirəm ki, bu məsələ gündəmdə olmalıdır. Yəni mütəmadi olaraq həmin kompensasiyanın ödənilməsi tələb edilməli və sonda buna hansısa qanuni yolla nail olunmalıdır. Yəni sözsüz ki, Ermənistan həmin məbləği ödəmək iqtidarında deyil. O halda məcbur etmək lazımdır ki, bunun əvəzində beynəlxalq qanunlara uyğun olaraq Qərbi Zəngəzurda Azərbaycan Respublikasının bu ərazisi ilə Şərqi Zəngəzurla Naxçıvanı birləşdirən 42 km enindəki tarixi ərazimizi versin... Buna yalnız İran etiraz edə bilər. Çünki həmin zolaq Azərbaycana verildiyi halda onun Ermənistanla o hissədəki sərhədi kəsilir.

Bu da İranın hakim dairələrinin narkotik və qaçaqmal, neft, benzin trafiki yolunun bağlanması deməkdir. Lakin bu problemi də İranla müəyyən siyasi-diplomatik yollarla yoluna qoymaq olar... Eyni zamanda hesab edirəm ki, artıq Çin də, Avropa da, ABŞ-ın özü də "Bir kəmər, bir yol" layihəsinin Zəngəzurdan keçən qısa yolunun - açılmasının tərəfdarıdır. Yəni loqistika bütün güclər üçün vacibdir... Bu da hamının uduşudur. Demək olar ki, Qarabağdakı qanunsuz separatçı-terrorçu rejimin ləğvi ilə Zəngəzur dəhlizinin açılmasına aparan yolla Ermənistan da udur... Buna getməklə Paşinyan dövlət və dövlətçiliyini qoruyub saxladı... Qarabağdakı bugünkü əməliyyata razılıq verməsəydi, Paşinyan öz hakimiyyətini də, erməni dövlətçiliyini də şübhə altında qoyacaqdı... Əgər indiki şəraitdə Ermənistanda dövlət çevrilişi-filan olsa, ölkə idaərəolunmaz vəziyyətə düşər. Azərbaycanda 1992-1993-cü illərdə olduğu kimi...

***- Necə hesab edirsiz Kreml İrəvandakı revanşist və Rusiyapərəst müxalif qüvvələr vasitəsi ilə Paşinyanı devirə biləcəkmi?***

- Əlbəttə, Rusiya Paşinyanı devirməyə çalışacaq. Çünki o, Kremlin maraqlarına uyğun olmayan bir fiqurdur, Qərbyönümlüdür. Amma Rusiya da artıq həmin Rusiya deyil ki, hər bildiyini diqtə etsin. Çalışacaq ki, hansısa kompromisə gedib Ermənistandakı öz mövcud mövqeyini qoruyub saxlasın. Çünki əgər Putin Ermənistan hakimiyyətinə qarşı kəskin addımlar atsa, o halda 102-ci hərbi bazasının Gümrüdə qalması sual altında olacaq. Və əgər Rusiya ordusu Ermənistandan çıxsa, 2025-ci ildə də mandatı bitən, artıq ortalıqda barış olduğu üçün fəaliyyətinə ehtiyac qalmayan Rusiya "sülhməramlı"ları Azərbaycan torpaqlarından çıxsa, bu, Moskvanın Cənubi Qafqazdan əlinin tamamilə üzülməsi demək olacaq. Əgər bu gün formalaşmış duruma uyğun düşünsək, bəlkə də 2023-cü ilin sonunadək olmasa da, gələn - 2024-cü ildə sülhməramlılar Qarabağdan çıxmağa məcbur olacaqlar... Odur ki, Rusiyanın əsas dərdlərindən biri nə yolla olursa-olsun, Cənubi Qafqazda ilişib qalmaqdır...

> *Ermənilərin xeyli hissəsi Qarabağda qalıb yaşayacaq*

***- Bəlkə məhz bu baxımdan, bu səbəbdən Putin Rusiya "sülhməramlı"ları orada ola-ola səsini çıxarmadı ki, Yuxarı Qarabağdakı separatçı rejimi çökdürək və yaxın gələcəkdə həmin ərazini bütövlükdə yurisdiksiyamıza qaytaraq?***

- Yox, Rusiya bunu edə bilməyəcək. Niyə? Çünki Rusiyanın özünün Ukrayna ilə yanaşı, öz daxilində də problemləri başdan aşır. Ukraynaya təcavüzü bu imperiyanı, demək olar ki, diz çökdürdü. Ona görə də yeni problemlərlə məşğul olmağa imkanı yoxdur... Bir sözlə, hesab edirəm ki, bundan sonra nə etsə də, Rusiya Cənubi Qafqazdakı proseslərdə böyük oyunçu kimi iştirak edə bilməyəcək... Yəni kimdənsə əvvəlki kimi hegemon ölkə olaraq tələb və hədə-qorxu ilə nəsə qopara bilməyəcək. Sadəcə, yumşaq razılaşma ilə nəsə etməyə çalışacaq...

Artıq Rusiya rəhbərliyində də reallıqla hesablaşmağa başlayan qüvvələr var. Azərbaycanın keçirdiyi son əməliyyatla burada, regionda Azərbaycan-Ermənistan, İran-Türkiyə müharibələrinin qarşısı alındı. Çünki burada savaş başlasaydı, Rusiya nəinki Cənubi Qafqazı, Şimali Qafqazı da itirəcəkdi. Çünki bu gün bu imperiyanı hər tərəfdən sıxırlar, vururlar... Burada yeni genişmiqyaslı müharibə başlasa, bu dəfə avtomatik olaraq ABŞ da, Fransa da işə qarışacaqdı. Artıq Gürcüstan vasitəsi ilə Ermənistan ərazisinə qoşun gətirməyin yolunu da cızmışdılar...

***- Artıq Amerika Birləşmiş Ştatları Ermənistanda, Gürcüstan da olduğu kimi, kiçikmiqyaslı olsa da hərbi təlimlər keçirdi...***

- Bəli, artıq Ermənistanda tədricən hərbi baza qurmağa hazırlaşırdı Amerika... Gürcüstandakı hakimiyyət də xeyli dərəcədə Rusiyayönlü olduğu üçün Qərb orada qısa müddətdə dövlət çevrilişi təşkil edəcəkdi. Bir sözlə, Cənubi Qafqaz alovlanacaqdı. Bütün bunları nəzərə alaraq demək olar ki, Azərbaycan rəhbərliyi reallığa uyğun ən ağıllı hesab apardı, ən ağıllı gedişlər etdi. Onsuz da nəinki Qarabağdakı, Ermənistandakılarla birgə bütün ermənilərin Azərbaycanla müharibə aparmaq gücü, imkanı yoxdur...

Səh. 4

# Səhiyyədə əldə edilmiş nailiyyətlərin müəllifi: HEYDƏR ƏLİYEV

## Layihə

***Ümummilli lider Heydər Əliyevin öz ölkəsinə, xalqına, millətinə misilsiz xidmətləri hər bir azərbaycanlının yaddaşına əbədi həkk olunub. XX əsrin ikinci yarısında bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də əldə edilmiş nailiyyətlər Heydər Əliyevin adı ilə bağlıdır. Hələ sovet hakimiyyəti illərində Ulu Öndərin sayəsində respublikamızda səhiyyənin hərtərəfli inkişafı üçün bütün mümkün tədbirlər həyata keçirilmiş, vətəndaşlara göstərilən tibbi xidmətlərin səviyyəsində mühüm keyfiyyət dəyişiklikləri baş vermişdi. O demək olar ki, Azərbaycan səhiyyəsini, tibb elmi və tibb təhsili sistemini daim diqqət mərkəzində saxlayırdı.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

HEYDƏR ƏLİYEV İLİ

O, ilk növbədə tibb üzrə xarici mütəxəssislərin diqqətini respublikaya cəlb etməyə, onların yerli mütəxəssislərlə əməkdaşlıq əlaqələrini genişləndirməyə çalışırdı. Bununla da dahi rəhbər respublika səhiyyəsində mövcud olan durğunluğun aradan qaldırılmasına səy göstərirdi və buna müvəffəqiyyətlə nail olurdu. Keçən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərindən etibarən tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfransların Bakıda keçirilməsini təşkil edən Heydər Əliyev ölkə səhiyyəsinin, o cümlədən tibb elmi və tibb təhsili sahələrinin beynəlxalq miqyasda tanınmasına, dayanıqlı və sabit inkişafının təmininə əlverişli şərait yaradırdı.

Ulu öndər Heydər Əliyev budövrkü fəaliyyəti barədə bunları deyirdi: "Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm, çox işlər görmüşəm. Mən o vaxt Sovetlər İttifaqının Moskvada yerləşən ən böyük, ən mötəbər tibb ocaqları, müəssisələri ilə yaxından tanış idim, onların yaranmasında, inkişaf etməsində xidmətlər göstərirdim. Mənim o vaxt həm onkoloji, həm kardioloji, həm ürək cərrahiyyəsi, həm oftalmoloji mərkəzlərin, başqalarının yaranmasında, inkişaf etməsində çox səylərim olmuşdur. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ dövləti tərkibində Azərbaycanın səhiyyəsinə marağı, qayğını daha da artırırdım. Moskvada yerləşən o böyük tibb elmi mərkəzlərinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım".

Tarixə nəzər salsaq görərik ki, yalnız Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişindən sonra həyata keçirilən sosial islahatlar səhiyyəni də əhatə edib, bu sahədəki tənəzzülə son qoyulub və tibbi xidmətin müasir standartlar müstəvisinə keçirilməsi üçün əlverişli şərait yaranıb. Xüsusilə qeyd etməliyik ki, Heydər Əliyev insan amilini müəyyən edən məsələlər sırasında ölkə əhalisinin sağlamlığının qorunmasını və bu çərçivədə tibbi xidmətlərə əlçatanlığın təmin edilməsini xüsusi diqqət mərkəzində saxlayırdı. Ona görə də həmin dövrdə yeni, müasir standartlara uyğun səhiyyə obyektlərinin inşası start götürür, mövcud tibb müəssisələrinin yenidənqurulmasına başlanılır, ambulator-poliklinika şəbəkələri genişləndirilir, ixtisaslaşmış müasir səhiyyə mərkəzləri istifadəyə verilir və tibb müəssisələrinin maddi-texniki bazası da möhkəmləndirilir.

Bunlar əhalinin sağlamlığının qorunması istiqamətində ulu öndərimizin xalqımıza əvəzsiz töhfələri idi. Bunun da nəticəsində respublikamızda əhaliyə göstərilən tibbi xidmətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyur, sağlamlıq və səhiyyə göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşır, hər hansı təhlükəli epidemiya və ya xəstəliklərin statistikasında artım baş vermir, həssas tibbi məsələlərlə bağlı vəziyyət qənaətbəxşləşir.

Təbii ki, islahatların uğur qazanmasında qanunvericilik bazasının təkmilləşdirilməsi də mühüm rol oynadı. Bu baxımdan, Heydər Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisdə qəbul edilən "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "Tibbi sığorta haqqında", "Xüsusi tibbi fəaliyyət haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Sanitar-epidemioloji sağlamlıq haqqında" kimi qanunlar mükəmməl səhiyyə qanunvericiliyini formalaşdırmaqla yanaşı, bu sahədə uğurları da təmin etdi.

Bundan başqa, ulu öndərin rəhbərliyi ilə hazırlanaraq qəbul edilən müstəqil Azərbaycanın Konstitusiyasında hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ təsbit olunub. Eyni zamanda, Konstitusiyada təsbit edilir ki, dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.

Ulu Öndərin imzaladığı qanunlardan birini xüsusilə vurğulamaq yerinə düşər. 1918-ci il iyunun 17-də Şərqdə ilk demokratik ölkə olan Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təşkil edilən Səhiyyə Nazirliyinin yaranma tarixi şərəfinə 17 iyun günü 2001-ci ildə ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Azərbaycan tibb işçilərinin peşə bayramı günü elan edildi. Həmin il peşə bayramı ərəfəsində ulu öndər Heydər Əliyevin tibb işçilərinə göndərdiyi ilk təbrik məktubunda deyilirdi: "Tibbin insan cəmiyyəti ilə yaşıd olan bir tarixi var və siz də bütün fəaliyyətinizi bu sahə ilə bağlayaraq, həyatınızı olduqca qədim, nəcib və xeyirxah bir işə - insanların sağlamlığının qorunması işinə həsr etmisiniz".

Təbii ki, o dövrdə ulu öndərin həyata keçirdiyi uzaqgörən və düşünülmüş siyasət milli səhiyyə sisteminin sürətli inkişafına zəmin yaradıb. Qeyd edək ki, Heydər Əliyevin sosial siyasəti ötən 20 ilə yaxın dövrdə Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilib. Bu dövrdə səhiyyəmiz sürətli inkişaf yolu keçib və əldə olunan uğurlar olduqca çoxşaxəlidir. Məsələn, 2004-cü ildən bəri respublikamızda 750-dən çox tibb müəssisəsinin tikilməsi və ya əsaslı şəkildə təmir edilməsi səhiyyənin inkişafı ilə bağlı işlərin nə qədər möhtəşəm olduğunu göstərir. Bu müəssisələrin açılışında Prezident İlham Əliyevin şəxsən iştirakı isə bu sahəyə göstərdiyi diqqətin bariz nümunəsidir. Hazırda elə bir şəhərimiz, rayonumuz yoxdur ki, orada müasir tibb müəssisəsi olmasın. Bu səhiyyə ocaqlarında vətəndaşlarımıza ən müasir standartlar səviyyəsində tibbi xidmətlər göstərilir. Bu dövrdə kadr hazırlığında da baş verən keyfiyyət dəyişiklikləri, tibbi personalın peşəkarlığının yüksəlməsi səhiyyəmizin uğurlarından sayılmalıdır. Səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, tibb işçilərinin ixtisas səviyyəsinin artması nəticəsində indi əhalinin dövlət tibb müəssisələrinə etibarı daha da artmışdır. Məhz belə tədbirlərin nəticəsidir ki, ölkəmizdə müalicəsi mümkün olmayan bir çox mürəkkəb xəstəliklər bu gün dövlət klinikalarında müalicə edilir. Bu sahədə əsas uğurlardan biri də ölkədə icbari tibbi sığortanın tam tətbiqidir. Əhalinin sağlamlığının qorunmasına xidmət edən icbari tibbi sığorta sisteminin yaradılması bir daha təsdiq edir ki, dövlətin sosial siyasətinin mərkəzində ilk növbədə insan amili dayanır.

Səhiyyədə əldə edilən uğurlarda, bu sahədə dövlət proqramlarının reallaşdırılmasında, tibb ocaqlarının yenidən qurulmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Öz layihələri ilə ulu öndərin ideyalarının reallaşmasına töhfələr verən Fond Prezident İlham Əliyevin səhiyyə sahəsindəki islahatların praktik nəticələr verməsi naminə əzmlə çalışır və vətəndaşların sağlamlığının yüksək səviyyədə təminatı üçün zəruri tədbirlər həyata keçirir. "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kim layihələr respublikamızda vətəndaşların sağlamlığının qorunmasına böyük töhfələr vermiş, ana və uşaqların sağlamlığına xidmət etmişdir.

Məhz bu sahədə atılan addımlar, həyata keçirilən islahatlar nəticəsində Azərbaycan səhiyyəsi 2019-cu ilin sonundan etibarən bütün dünyada yayılmağa başlayan koronavirusun sınağından da layiqincə çıxmağı bacardı. Ölkə Prezidenti cənab İlham Əliyevin bu sahədə yürütdüyü siyasətin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın problemə həssas münasibətinin nəticəsi olaraq vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər koronavirus infeksiyasının ölkəmizdə ağır fəsadlar törətməsinin qarşısını aldı. Təbii ki, bu gözəgörünməz xəstəliklə mübarizədə Azərbaycanda ötən dövrdə tibbi infrastrukturun modernləşdirilməsi, yeni səhiyyə müəssisələrinin yaradılması, xəstəxana və digər səhiyyə ocaqlarında müasir tibbi avadanlıqların mövcud olması, peşəkar tibbi personal böyük rol oynadı. Məhz bütün bunların nəticəsində Azərbaycan COVID-19-la mübarizədən ən az itkilərlə çıxan dövlətlər sırasında yerini aldı və bu sahədə əldə olunan uğurlarla tarixə düşdü.

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Deputatlar üçün mobil tətbiq hazırlanıb

**Milli Məclis deputatlarının işinin səmərəliliyini artırması üçün mobil tətbiq hazırlanıb. Layihəni Milli Məclisin Regional məsələlər komitəsinin iclasında parlament Aparatının İnformasiya resursları və texnologiyaları şöbəsinin müdiri Şahin Həsənov təqdim edib.**



Bildirilib ki, mobil tətbiq parlamentdə informasiya texnologiyalarının imkanlarından səmərəli istifadənin təmin edilməsi məqsədilə parlament Aparatının İnformasiya resursları və texnologiyaları şöbəsi tərəfindən hazırlanıb. Artıq Milli Məclisin iclaslarının gündəlikləri, məktub və digər sənədlər mobil qurğu vasitəsilə ötürüləcək. Bu, mobil texnologiyaya keçid, informasiya əlçatanlığının təmini, kağız daşıyıcılardan istifadənin azaldılması, biznes prosesinin təkmilləşdirilməsi kimi məsələlərə xidmət edir. Mobil tətbiqin İOS və Android əməliyyat sistemləri üçün proqram təminatı yaradılıb.

# Tibb sahəsində qanunsuz fəaliyyətlə məşğul olanlar cərimələnəcək

**Lisenziya olmadan özəl tibbi fəaliyyətlə və ya əczaçılıqla məşğul olma hallarına görə İnzibatı Xətalar Məcəlləsinə əsasən cərimələr tətbiq olunur.**



Dövlət Vergi Xidmətindən bildirilib ki, bu halda fiziki şəxslərə 2 min manatdan 3 min manatadək, vəzifəli şəxslərə 5 min manatdan 10 min manatadək, hüquqi şəxslərə isə 20 min manatdan 30 min manatadək maliyyə sanksiyası tətbiq edilir.

Qanunvericiliklə müəyyən edilmiş qaydada verilən diplom və ya xüsusi icazə olmadan xalq təbabəti ilə məşğul olan şəxsləri isə 400 manatdan 600 manatadək maliyyə sanksiyası gözləyir.

# Moskva susmağa məcbur oldu

◂ əvvəli 3-cü səhifədə

***- Yəqin ki, artıq bundan sonra uzun müddət Azərbaycanın Yuxarı Qarabağ ərazisində ciddi mənada separatçı çıxışlar, çağırışlar eşitməyəcəyik?***

- Yadınızdadırsa, bir dəfə sizinlə söhbətimizdə soruşmuşdunuz ki, siz Ermənistanda işləmisiz, ermənilər necə toplumdu, mən də cavab vermişdim ki, erməni yaxşı millətdi, bu şərtlə ki, sən onun rəisi olasan.



Bəli, güc qarşısında onlar baş əyəndirlər, onlar hər bir şəraitə uyğunlaşan, adaptasiya olunan buqələmun tipli bir toplumdur. Onların arxalarında güc olanda "mənəm-mənəm" deyib hay-küy qaldırmaqları ermənilərin guya qeyrətli, güclü millət olması demək deyil. Bunların hadisələrə reaksiyası yaşayış tərzlərindən asılıdır.

Çünki onların gerçək dövlətləri olmayıb. Onları əllərində alət edən ruslar "Ermənistan" dövlətini qondarıblar, Azərbaycanın daxilində muxtariyyət veriblər. Əslində elə onlar öz millətçilərini də alver, ticarət, kommersiya, qazanc vasitəsinə çeviriblər. Ona görə də tez-tez simalarını dəyişirlər. Dünən qatı düşmən olduqları millətlə bu gün üzdə dostlaşıb həmin millətin nümayəndələrindən, varidatından faydalanmağı bacarırlar. Onlarla dostluğun acı təcrübəsini bizim nəsillər XX əsrin əvvəlindən real yaşayıb.

***- Mehman müəllim, sizcə, bütün bu baş verənlərdən, o cümlədən Xankəndi, Ağdərə ətrafındakı son əməliyyatlardan sonra Qarabağdakı ermənilərdən xeylisi Azərbaycanın qanunlarına tabe olub vətəndaşlığını qəbul edib orada yaşayacaqmı?***

- Bəli, ermənilərin xeyli hissəsi Qarabağda qalıb yaşayacaq. Həm sadaladığımız milli, etnopsixoloji xüsusiyyətlərinə görə, həm də bizim unutqanlığımızı yaxşı bildiklərinə görə. Lakin bu dəfə biz ayıq olmalı, onlarla yanaşı yaşasaq da, gələcək üçün ehtiyatı əldən verməməli, onların qadın, qız alverinə uymamalıyıq ki, gələcəkdə fürsət düşən kimi yenidən dirçəlib başımıza yeni problemlər açmasınlar.

Bunun üçün vətəndaşlığımızı qəbul etmiş ermənilərə qarşı dözümlülük göstərib, eyni zamanda bizimlə əvvəlki kimi sıx qaynayıb-qarışmalarına imkan verməDən, onların, sadəcə Azərbaycan Konstitusiyasına, qanunlarına uyğun dinc, yanaşı yaşamaları üçün şərait yaratmalıyıq...

***Sultan Laçın***

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycan-Türkiyə dövlət sərhədində Araz çayı üzərində yeni körpü tikiləcək. Bu, Baş nazir Əli Əsədovun sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda əksini tapıb.

■ Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi ləğv edilib. Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb. Nazirlər Kabinetinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

■ İrandan Ermənistan və Azərbaycana bütün aviareyslər ləğv edilib. Bu barədə IRNA İran Mülki Aviasiya Təşkilatının rəhbərinə istinadən məlumat yayıb. Bildirilib ki, sərnişinlərin təhlükəsizliyini qorumaq məqsədi ilə İrandan Ermənistan və Azərbaycana bütün uçuşlar növbəti bildirişə qədər təxirə salınıb.



■ Rusiya Prezidenti Vladimir Putin Çinin xarici işlər naziri Van İni Ukrayna və Qarabağdakı vəziyyətlə bağlı məlumatlandırmaq niyyətindədir. Putin bildirib ki, Rusiya sülhməramlıları Qarabağ məsələsində iştirak edən bütün tərəflərlə fəal işləyirlər.

■ Bu il Azərbaycan-Türkiyə yüksəkgərginlikli elektrik xətti layihələndiriləcək. Bu, Baş nazir Əli Əsədovun sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda əksini tapıb.

■ Rusiyanın Voronej vilayətində Su-34 qırıcısı qəzaya uğrayıb. Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, təyyarənin iki nəfər ekipajı katapult edib, onların sağlamlıqları üçün heç bir təhlükə yoxdur.



■ İnflyasiyanı azaldan amillərin güclənməsi ilin sonuna və 2024-cü ilə illik inflyasiyanın hədəfə yaxınlaşması ehtimalını artırır. Bu barədə Azərbaycan Mərkəzi Bankının uçot faiz dərəcəsinin parametrləri bağlı yaydığı açıqlamada bildirilib.

■ Asiya İnkişaf Bankı (AİB) Azərbaycanda orta illik inflyasiyanı 2023-cü ildə 10% proqnozlaşdırıb.

Bu isə AİB-in aprel proqnozundan 3% bəndi çoxdur. Bu barədə Bankın hesabatında bildirilib. AİB 2024-cü il üzrə Azərbaycanda inflyasiya proqnozunu isə 6,5%-dən 8,5%-ə qədər artırıb. Bu isə aprel proqnozuna nisbətən 2,0% bəndi çoxdur.

## İqtisadiyyat

***Bu** ilin yanvar-avqust aylarında Azərbaycan xarici ölkələrlə 35 milyard 505 milyon ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrünə nisbətən 1,1 faiz çoxdur. 8 aylıq xarici ticarət dövriyyəsinin 24 milyard 355 milyon ABŞ dolları ixracın, 11 milyard 151 milyon ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə ixrac 7,2 faiz azalıb, idxal isə 25,7 faiz artıb. Son nəticədə xarici ticarətdə 13 milyard 204 milyon dollarlıq müsbət saldo yaranıb. Bu da illik müqayisədə 24 faiz azdır.*



# Xarici ticarətdə müsbət saldo azalıb

Yeri gəlmişkən, bu ilin yanvar-iyul aylarında Azərbaycanın xarici ölkələrlə apardığı ticarət əməliyyatı 30 milyard 333 milyon ABŞ dolları dəyərində olub. Bu, ötən ilin eyni dövrünə nisbətən 0,9 faiz çoxdur. 7 aylıq xarici ticarət dövriyyəsinin 20 milyard 777 milyon ABŞ dolları ixracın, 9 milyard 556 milyon ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə ixrac 7,9 faiz azalıb, idxal isə 27,5 faiz artıb. Son nəticədə xarici ticarətdə 11 milyard 220 milyon dollarlıq müsbət saldo yaranıb. Bu da illik müqayisədə 25,6 faiz azdır.

Bəs, görəsən, xarici ticarətdəki müsbət saldonun azalmasına səbəb nədir? Xarici ticarətdəki müsbət saldo nə dərəcədə möhkəmdir?

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı ekspert Pərviz Heydərov bildirib ki, xarici ticarət dövriyyəsi iqtisadiyyatda real vəziyyəti göstərir:**

"İqtisadiyyatın real durumunu göstərən əsas indikatorlardan biri xarici ticarət dövriyyəsi - idxal və ixrac əməliyyatlarıdır. Tədiyyə balansını da əsasən məhz bu göstərici müəyyən edir. Və ümumiyyətlə, hər bir ölkə iqtisadiyyatında hər şey həmin ölkənin məhz nəyi alıb, nələri satması ilə və nə qədər alıb, nə qədər satması ilə ölçülür. Çox şeyi məhz bu müəyyən edir və real iqtisadi gücü də məhz bu amil təzahür etdirir.

Məsələn, 3 il qabaq pandemiya şəraiti dünya ölkələrini ilk növbədə ona görə gücdən saldı ki, ticarət zəiflədi, ölkələrarası alış-veriş əlaqələri dayandırıldı və bütün bunların nəticəsində də istehsal azaldı. Xarici ticarətdə müsbət saldo ölkədə makroiqtisadi dayanıqlıq üçün tələb olunan əsas şərtlərdən sayılır. Hansı ki, bunun əsasında maliyyə sabitliyi, dövlət büdcəsi gəlirliliyi, istehsalın artım tempi və s. kimi məsələlər durur. Ümumiyyətlə, qazandığından nə qədər az xərcləsən bir o qədər çox iqtisadi güc və maliyyə dayanıqlığı əldə edə bilirsən. Yetər ki, buna şərait olsun. Ancaq burada bir məqam var. O da bundan ibarətdir ki, biz, enerjidaşıyıcıları ölkəsiyik və müsbət saldo buna görədir.

İdxal və ixrac əməliyyatlarımızın strukturuna diqqət yetirdikdə dövlət gəlirlərimizin əsas hissəsini neft və qaz sektorundan əldə olunan gəlirlər təşkil etdiyini görürük. Belə ki, gəlirlərimizin 90 faizdən çox hissəsini məhz bu sektordan ixrac məhsulları təşkil edir. Neft-qaz sektoruna daxil olmayan mallara gəldikdə isə, bir sıra meyvə-tərəvəz məhsullarını, bitki və heyvan mənşəli piyləri və yağları, şəkər, tərəvəz və meyvələr üzrə emal məhsullarını, alkoqollu, alkoqolsuz içkilər ilə sirkəni, sement, elektrik enerjisi, kimya sənayesi məhsulları, plastmassa və onlardan hazırlanan məmulatlar ilə pambıq lifi və ipliyi, qara metallar və onlardan hazırlanan məmulatları, alüminium və ondan hazırlanan məmulatları, həmçinin digər bu kimi məhsul və malları qeyd etmək olar.

İdxala gəldikdə isə, onun strukturunda yeyinti məhsulları 16 faizdən çox yer tutur. Söhbət ət, süd, qaymaq, kərə yağı və süddən hazırlanan digər yağlar, meyvə-tərəvəz, çay, buğda, arpa, qarğıdalı, düyü, bitki-heyvan mənşəli piylər və yağlar kimi məhsullardan gedir. Halbuki bunları özümüz də istehsal edə bilərik. Çünki bunun üçün ölkədə kifayət qədər potensial mövcuddur. Biz bir vaxtlar ət və ət məhsullarına olan tələbatın əsas hissəsini yerli istehsal hesabına ödəyirdik. Amma bu gün vəziyyət başqadır. Bu da onu göstərir ki, heyvandarlıq

> “
>
> *Xarici ticarət dövriyyəsi iqtisadiyyatda real vəziyyəti göstərir*
>
> *Bu qədər məhsuldar torpaqlar varkən, nədən milyonlar kənd təsərüfatı məhsullarının idxalına xərclənsin?*

sahəsində çox ciddi problemlər mövcuddur". Ekspert vurğulayıb ki, bu gün əsas hədəf qeyri-neft sektorunun inkişafı olmalıdır: "Bəli, iqtisadiyyatımızda qeyri-neft-qaz sektorunun inkişafı prioritet seçilib və bu istiqamətdə müvafiq nəticələr də əldə edilməkdədir.

Ancaq tələb olunan budur ki, ixracda qeyri neft-qaz sektoruna aid məhsullar dominant rol təşkil etsin. Xarici ticarət əməliyyatlarımızda buna nail olsaq müsbət saldomuz da möhkəm və dayanıqlı əhəmiyyət kəsb edə bilər və edəcək. Buna isə hələ var.

Ümumiyyətlə, ixrac sırf intensiv şərait sayəsində stimullaşaraq genişlənməlidir, ekstensiv şərait, yəni xarici konyunktur amillər hesabına yox. Dünya bazarlarında yaranan müvafiq konyunktur şərait hesabına yaranan üstünlük nisbi xarakter daşıyır və buna bel bağlamaq olmaz. Bu baxımdan, real olaraq hələ ki xarici ticarətimizdə idxal ixracdan daha üstün, möhkəm özülə və struktura sahibdir. Bu isə heç də qənaətbəxş vəziyyət deyil. Qeyri-neft sektorunun inkişafı sayəsində bunun əksini təmin etməliyik".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisad elmləri doktoru, professor Əli Əlirzayev də bu qənaətdədir ki, ixracda neft və neft məhsullarının payının azaldılması prioriotet istiqamət olsa da, buna lazımi səviyyədə nail olmaq hələlik mümkün deyil:**

"Xarici ticarətdə dayanıqlı müsbət saldo üçün daha ciddi işlərin görülməsinə ehtiyac var. Daha dəqiqi, ixrac potensialı sahələrinin inkişafı üçün kompleks tədbirlər gücləndirilməlidir. Biz idxaldan asılı ölkəyik. Əsas ixrac məhsulunuz isə neftdir.

Onun da qiyməti sabit deyil, tez-tez dəyişir. Ona görə biz ixrac potensialımızı genişləndirməliyik. Məsələn, elə götürək kən təsəttüfatı məhsullarını. Axı, praktiki olaraq bizim bu istiqamətdə tələbatı ödəmək potensialımız çoxdur. Bu qədər məhsuldar torpaqlar varkən, nədən milyonlar kənd təsərüfatı məhsullarının idxalına xərclənsin? Bütün hallarda Azərbaycan üçün qeyri-neft sektorunun inkişafı birmənalı kənd təsərrüfatından başlanılmalıdır. İdxaldan asılılığın azalması, daxili tələbatın ödənilməsi, regionlarda məşğulluğun artırılması və s. kimi bütün məsələlər öz həllini məhz kənd təsərrüfatında ciddi irəliləyişlərin olmasında tapa bilər. Amma buna kağız üzərində deyil, yerlərdə praktik icrasına nail olmaq, həm də ən müasir innovativ yanaşmaların tətbiqi ilə nail olmaq lazımdır".

# Avropa alternativ enerji mənbələri

***R**usiya qazından imtina etdikdən sonra Avropa alternativ enerji mənbələrini Azərbaycan və Əlcəzairdə tapıb və bununla da enerji təhlükəsizliyini təmin etməyi planlaşdırır. Bu barədə "The Wall Street Journal" da dərc olunan "Qlobal enerji müharibəsində gözlənilməz qaliblər" başlıqlı məqalədə yazılıb. Materialda qeyd olunub ki, vaxtı ilə heç kimin əhəmiyyət vermədiyi enerji yataqları indi Avropanın diqqətini cəlb edir. Konqodan başlayaraq Azərbaycana kimi enerji mənbələri kəşf olunur və bu ölkələr inkişaf edir.*



İtaliyanın "Eni" şirkəti Əlcəzairin dövlət neft şirkəti ilə birlikdə bir neçə ay ərzində Saxara səhrasının ortasında qaz quyuları aşkar edib və hasilata başlayıblar. Əlcəzairdə hasil olunan qaz Aralıq dənizinin dibi ilə çəkilən üç qaz kəməri ilə Avropaya nəql edilir. Bu dövlət tədricən Avropanın enerji bazarına daxil olur və möhkəmlənir. Əvvəllər Rusiyanın "Qazprom" şirkəti Avropanın enerji bazarını tam olaraq əlində saxlayırdı.

Əlcəzair ilə Rusiya arasında çox mehriban münasibətlər mövcud idi. Rusiyadan silah-sursat alan Əlcəzair qlobal enerji bazarına o qədərdə can atmırdı. Lakin vəziyyətin dəyişməsi külli miqdarda qaz satışı üçün imkanlar yaradıb və Rusiya ilə xoş münasibətlərə baxmayaraq, Əlcəzair bu fürsəti əldən vermək istəmir.

Bu ölkənin energetika naziri Məhəmməd Arkab bildirib ki, "Bizim Rusiya ilə siyasi əlaqələrimiz var. Lakin biznes biznes olaraq öz yerində qalır". Artıq Əlcəzair Almaniya, Niderland Krallığı və Qərbi Avropanın digər dövlətləri ilə qaz satışı haqqında danışıqlar aparır. ABŞ-ın "Chevron" və "Exxon Mobil" kimi iri şirkətləri də Əlcəzairdə qaz hasil etmək barədə müqavilə imzalayıblar.

Məqalədə vurğulanır ki, Azərbaycan da Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başlayıb. Artıq Azərbaycanı İtaliya ilə 3 min 400 kilometrlik qaz kəməri birləşdirir. Bu kəmər vasitəsi ilə Şərqi Avropa ölkələri təbii qazla təmin ediləcək. Nəzərə çatdırılıb ki, Azərbaycan rəhbərliyi 2027-ci ildə qaz ixracını daha da artıracaq ki, bu da Avropa üçün olduqca vacibdir.

Azərbaycan Transanadolu (TANAP) və Transadriatik (TAP) kəmərləri vasitəsi ilə Avropaya 15 milyard kubmetr qaz ixrac edib. Gələcəkdə bu rəqəmin 22 milyarda çatdırılması planlaşdırılır. Avropa ümid edir ki, alternativ yollarla əldə etdiyi təbii qaz ilə enerji təhlükəsizliyini təmin edəcək.

## Müsahib

***S**entyabrın 17-də UNESCO-nun Ümumdünya İrs Komitəsi Azərbaycanın Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edib. Hirkan meşələri bu siyahıya daxil edilən Azərbaycanın ilk təbiət ərazisidir. Bu meşələrin özəlliyi, həmin siyahıya daxil edilməsinin səbəbi, növbəti nominasiyalar barədə AZƏRTAC-ın suallarını ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov cavablandırıb.*

# Hirkan meşələrində 50-yə qədər flora növü var

***- Vüqar müəllim, Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına salınmasına səbəb olan özəlliyi nədir? Ümumdünya İrs Siyahısına salınmanın hansı üstünlükləri var?***



**Vüqar Kərimov,**
ekologiya və təbii sərvətlər nazirinin müavini

- Bir neçə gün öncə Azərbaycan üçün çox əlamətdar bir hadisə baş verdi. Hirkan meşələri bizim digər mədəni abidələrimiz kimi UNESCO-nun Ümumdünya İrs Siyahısına salındı. Cənubi Qafqazda üçüncü dövr buzlaşmanı yaşamayan iki ərazi var. Biri bizim Hirkan meşələrimiz digəri isə Gürcüstan ərazisindəki Kolxida florasıdır. Həmin iki ərazi 3-cü buzlaşmanı görmədiyindən, qeyd olunan ərazilərdəki buzlaşmaya qədərki relikt flora və fauna növləri bu günümüzə kimi qorunub saxlanılıb. Yəni ki, bu ərazilər öz endemizm xüsusiyyətləri ilə orijinal ərazilərdir və burada yayılan növlərə dünyanın başqa heç bir coğrafiyasında rast gəlinmir.

Hirkan meşələrində flora növlərindən dəmirağac, qızılağac, şabalıdyarpaq palıd, Lənkəran akasiyası, Hirkan qovağı, azat ağacı, Hirkan bigəvəri, Hirkan şümşəsi, Hirkan şümşadı, fauna növlərindən isə talış qırqovulu, tirəndaz-oxlu kirpi, Qafqaz bəbiri, vaşaq və s. kimi nadir növlərə rast gəlinir.

Bu ərazilərdə 50-yə qədər Hirkan mənşəli endemik və subendemik növ var. Həmin növlərin qorunub saxlanılması, bir irs kimi gələcək nəsillərə ötürülməsi həm ölkələrin, həm də beynəlxalq qurumların öhdəliyidir. Məlum olduğu kimi, Hirkan meşələrinin ərazisi milli park elan olunub və xüsusi mühafizə olunan təbiət ərazisi kimi qorunur. Hirkan meşələrinin Ümumdünya İrs Siyahısına salınması imkan verəcək ki, beynəlxalq təcrübə ilə daha yaxından tanış olmaqla təmaslarımızı gücləndirək, həmin ərazilərin qorunmasını daha mütəşəkkil təşkil edək. UNESCO-nun Ümumdünya İrs Siyahısında olmağımızın digər üstünlüyü, ekoturizm potensialının artırılması, beynəlxalq təşkilatların dəstəyi ilə mühüm əhəmiyyətli ekoloji layihələrin həyata keçirilməsi, həmçinin nadir növlərin qorunmasının daha da yaxşılaşdırılmasıdır.

***- Hirkan meşələri Azərbaycanın Ümumdünya İrs Siyahısına salınan ilk təbiət ərazisidir. Bəs, Cənubi Qafqazdan həmin siyahıya salınmış təbiət əraziləri varmı?***

- Gürcüstandakı Kolxida florası 2021-ci ildə Ümumdünya İrs Siyahısına salınıb. Hirkanın İran hissəsi 2019-cu ildə, Azərbaycan hissəsi isə bir neçə gün əvvəl UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edildi. Bundan başqa, ölkəmizdə bir neçə təbiət ərazisi var ki, onların da siyahıya salınmasını planlayırıq. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həmin siyahıya salınacaq ərazilər var. Onlar ilkin siyahıya salınıb və Ümumdünya İrs Siyahısına daxil ediləcəyi tarixi gözləyirik. Abşeron yarımadasında Azərbaycanın palçıq vulkanlarının yerləşdiyi ərazi çox unikal bir ərazidir. Növbəti salınacaq ərazi böyük ehtimal ki, palçıq vulkanlarının yerləşdiyi ərazi olacaq.

Sonrakı dövrlərdə Kəpəz dağının ətəyində olan göllərin - Göygöl, Maralgöl, Zəligöl və digər göllərin, Axarbaxar dağ silsiləsində Alazan çayı boyunca olan ərazilərin siyahıya salınması nəzərdə tutulub. Ümumdünya İrs Siyahısına daxil ediləcək ərazilər arasında Eldar şamı meşəliyi, Bəsitçay Dövlət Təbiət Qoruğunun Şərq çinarı meşəliyi də var. Ölkəmizdə bu cür təbiət abidələri çoxdur.

Azərbaycanda ekoloji siyasət məsələləri, bioloji müxtəlifliyin qorunması daim diqqət mərkəzindədir. Hirkan meşələrinin də həmin siyahıya salınması ekologiya, bioloji müxtəlifliyin qorunması sahəsində aparılan dövlət siyasətinin məntiqi davamıdır. Çox mürəkkəb proseslərdən keçilsə də, bir ilkə imza atıldı. Düşünürəm ki, növbəti təbiət ərazilərinin həmin siyahıya salınması daha rahat olacaq. Bu, həm də ölkənin prestijidir. Nə qədər çox belə ərazilər UNESCO-nun

> “
>
> *Bu ərazilər öz endemizm xüsusiyyətləri ilə orijinal ərazilərdir*

Ümumdünya İrs Siyahısına salınarsa, bu, ölkənin imicinə də müsbət təsir göstərən amillərdəndir. Lakin bu, təkcə prestij məsələsi deyil. Həm də həmin ərazilərin qorunmasında daha diqqətli olmaq məsuliyyətini yaradır. Çünki həmin əraziyə beynəlxalq aləm də nəzarət edir. Ümumdünya İrs Siyahısına salınanda orada olan təbii landşaftın, bioresursların, fauna, flora növlərinin qorunması ilə bağlı öhdəliklər götürdük və onu mütləq yerinə yetirməliyik.

***- Zaqatalada ölkənin ilk biosfer rezervatının yaradılması prosesi hansı mərhələdədir? Gələcəkdə həmin ərazinin də Ümumdünya İrs Siyahısına salınması ehtimalı varmı?***

- Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Zaqatala Dövlət Təbiət Qoruğunun bazasında biosfer rezervatının və Palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğunun bazasında geoparkların yaradılması təşəbbüsləri irəli sürülüb. Hər iki layihənin icrası davam edir. Zaqatala Dövlət Təbiət Qoruğunun bazasında biosfer rezervatının yaradılması üzərində iki ildir ki, iş gedir.

Hazırda layihə aktiv fazadadır. Düşünürəm ki, növbəti dövrlərdə hər iki layihəni uğurla başa çatdıracağıq. Bundan əlavə, Zaqatala Dövlət Təbiət Qoruğunun maraqlı ərazilərini seçib Ümumdünya İrs Siyahısına salınması üçün təkliflər irəli sürmək niyyətindəyik.

# 27 Sentyabr - Zəfər yolunun başlanğıcı

***2020-ci il 27 sentyabr tarixində işğalçı Ermənistanın hərbi təxribatlarına cavab olaraq əks-hücuma keçən Azərbaycan Ordusu noyabrın 8-də Şuşa şəhərini azad edərək, düşməni kapitulyasiyaya imza atmağa məcbur etdi. Rusiyanın vasitəçiliyilə imzalanan üçtərəfli bəyanata əsasən, Azərbaycan ərazilərində olan erməni hərbi birləşmələri ərazilərimizi tərk etməli və Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərini, sərhəd bütövlüyünü tanıyan sülh müqaviləsinə imza atmalı idi. Ərazilərimizin böyük bir hissəsinin işğaldan təmizlənməsi ilə bitən 27 Sentyabr Vətən Müharibəsi böyük qalibiyyət tarixini yazmaqla, növbəti proseslərin Azərbaycanın xeyrinə həll olunmasında əsas yol xəritəsini cızdı.***

## Tarix

Vətən Müharibəsindən keçən 3 il ərzində bu hadisənin ictimai-siyasi-hərbi, beynəlxalq əhəmiyyəti müxtəlif aspektlərdə araşdırılmaqda davam edir. Siyasi və hərbi ekspertlər həmin qızıl tarixi "Həftə içi"ndə müzakirə etdilər.

■ **Politoloq Qabil Hüseynli bildirir ki, Vətən müharibəsinin başlanmasında geosiyasi, geostrateji, hərbi-siyasi və zaman məsələsi diqqətlə nəzərə alınmış və münasib vaxt kimi 27 sentyabr seçilmişdi.** Eyni zamanda, iqlim şərtləri, həmçinin əhalinin özünün ruh yüksəkliyinin həmin vaxtlarda yüksək olduğu Azərbaycan cəmiyyətində möhkəm milli-siyasi həmrəyliyin yarandığını nəzərə alaraq, həmin gün seçildi. Öyrənildi ki, bugünün seçilməsi qələbəyə aparacaq və apardı da...



**Qabil Hüseynli,**
politoloq

Q.Hüseynli obyektiv, başa düşən dünyanın Azərbaycanın haqq davasını normal qarşıladığını qeyd edib: "Azərbaycan torpaqları 30 il idi ki, işğal altında idi. Otuz mindən artıq insanımız həlak olmuşdu, 1 milyon məcburi qaçqın və köçkün yurd yerini tərk etmişdi. Xocalı, Meşəli, Qaradağlı, Ağdaban, Ağanis-Ayrımda qanlı soyqırımlar törədilmişdi. Yağı düşmən ərazilərimizin böyük bir hissəsini rusun yaxından köməkliyi ilə istila etmişdi. Dünya bu problemi həll etmək üçün "ATƏT-in Minsk qrupu" deyilən qondarma qurum yaratmışdı. Onlar da bölgəyə turist səfərlərindən başqa heç nə etmirdi: yeyib-içib, gəzirdilər. Cəsarətləri çatıb ərazilərimizin 20 faizini işğal etmiş dövlətlərə "təcavüzkar dövlət" belə, deyə bilmirdilər. Xristian təəssübkeşliyi, xristian missionerliyi özünü açıq surətdə büruzə verirdi. Bu insanlar müsəlamn türk dünyasıba qarşı amansız idi. Onlar vaxtı uzadır və bundan da Ermənistanın istifadə etməsinə şərait yaradıtdılar. Nəhayət, Azərbaycan Ordusu ayağa qalxdı, və yağı düşməni böyük cəsarətlə ərazilərimizdən vurub-çıxardı".

Q.Hüseynli deyir ki, 27 sentyabrda başlanan müharibə Azərbaycan vətəndaşlarına, xüsusilə də məcburi köçkünlük həyatı yaşayan insanlara öz torpaqlarına qayıtmaq şansı yaratdı: "Bu, Azərbaycan insanına böyük ruh yüksəkliyi aşıladı. Azərbaycan insanına son 200 ildə yağı düşmən üzərində ilk qələbəni qazanmaq imkanı verdi.

"

*Cəsarətləri çatıb ərazilərimizin 20 faizini işğal etmiş dövlətlərə "təcavüzkar dövlət" belə, deyə bilmirdilər*

*Biz Qarabağda yaşayan əhalinin normal həyata qayıtmasını təmin edən yol xəritəsi ilə hərəkət edirik*

*Azərbaycan xalqı özünü təsdiq etmək üçün ölümün üzərinə gedib zəfər qazandı*

İndi Azərbaycan cəmiyyəti müharibənin yaratdığı ruh yüksəkliyi altındadır, öz torpaqlarını qorumaq üçün əzmlə dayanıb və onu yağıdan qoruyacaq".

■ **Milli Məclisin deputatı Fazil Mustafa bildirir ki, 2020-ci il 27 sentyabr tarixində işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı Azərbaycan Ordusunun başladığı əks-hücum vaxtından asılı olmayaraq, tarixi zərurət idi.** Azərbaycan 30 il işğal altında qalan və erməni işğalçılarının qeyd-şərtsiz ərazilərimizdən çıxarılmasını tələb edən BMT-nin 4 mühüm qətnaməsini özü icra etməklə, əslində, beynəlxalq hüquqa hörmətlə yanaşmanın nümunəsini göstərdi, aliliyini təmin etdi:



"Azərbaycan özünün əsas hədəfləri üzərində düşünür. Biz Qarabağda yaşayan əhalinin normal həyata qayıtmasını təmin edən yol xəritəsi ilə hərəkət edirik. Məlumdur ki, fikirlərimizi əsas hədəfimiz olan terrorun ləğvi üzərində cəmləməliyik. Sonrakı mərhələdə proseslər özü düyünləri açacaq".



**Fazil Mustafa,**
Milli Məclisin deputatı

F.Mustafa bildirib ki, 2020-ci il əks-hücum əməliyyatı üçün 27 sentyabr tarixinin seçilməsi Azərbaycanın illərdir hazırlaşdığı və torpaqların azad olunması yolunda səfərbər olan bir cəmiyyətin diqtəsi ilə baş verdi. Onun fikrincə, hər hansı planlaşdırılmış hadisə ilə bağlı bir tarix seçimi təsadüfi, yaxud da şərtlərin uyğun gəldiyi vaxtda da ola bilər. Əsas odur ki, 27 sentyabrda baş verən Vətən savaşı özünün nəticəsini verdi və biz torpaqları azad etdik:

"27 sentyabr Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bir səhifə oldu və biz 200 illik bir düyünün əsas hissəsini çözə bildik. Azərbaycanın əks-hücum qərarı haqq, ədalət üzərində qurulmuşdu. Bu da ondan ibarət idi ki, ərazilərimizin azad olunması üçün BMT-nin icra edilməmiş qətnamələri var idi. Bu qətnamələr yerinə yetirilmədiyinə görə problemlər yaşayırdıq. İndi artıq bu qətnamələri icra etdik. Buna görə də beynəlxalq təşkilatların bu məsələdə bizə hər hansı iradı olmadı. Söhbət Azərbaycanın ərazi bütövlüyündən gedir. Ərazi bütövlüyü məsələsi bizim üçün qırmızı xətdir və bu xətti də kimsə bizə irad kimi gösətər bilməz. Nəticədə bu problemləri həll edərək, son nöqtəni qoymalıyıq. Bu gün artıq o prosesin yekunlarını tamamlamaqdayıq. Çalışmalıyıq ki, bunu da uğurla başa çatdıraq".

F.Mustafa 27 sentyabrın Azərbaycan insanına, həm də bir həyat təcrübəsi, döyüş təcrübəsi verdiyini qeyd edir: "İndi o təcrübədən yararlanaraq daha böyük addımlar atmağı düşünürük. Əminəm, qısa müddətdə bu addımları atıb uğurla yekunlaşdıracağıq. Azərbaycan Dövləti, Azərbaycan Ordusu özünün yarımçıq qalmış işini tamamlayacaq". Deputat qeyd edir ki, 44 günük savaşdan sonra Azərbaycan, Ermənistan və Rusiyanın birgə imzaladığı üçtərəfli sazişin müddəalarını yerinə yetirməklə, qarşı tərəfi öhdəliklərini icra etməyə dəvət edib. Ermənistan öz revanşist, terror siyasətindən, təxribatlarından əl çəkmədikcə, Azərbaycan bu dəfə də üçtərəfli sazişin müddəalarını yerinə yetirir və bunun üçün addımlar atılır.

F.Mustafa bu istiqamətdə başlanan işlərin uğurla nəticələnəcəyinə əminlik ifadə edib: "Qələbəni 27 sentyabrda, əsasən, təmin etdik, indi isə son qələbəyə qədər mübarizəmiz davam etməlidir ki, bölgəni abadlaşdırmaqla yanaşı, həm də terrordan azad edə bilək. Biz bu prosesləri tarixin sonrakı dövrlərinə saxlaya bilmərik".

■ **Hüquqşünas, siyasi ekspert Vüqar Dadaşov bildirir ki, Vətən müharibəsində Azərbaycanın Ermənistan və onun havadarları üzərində möhtəşəm tarixi zəfəri Azərbaycan xalqınım susadığı və həsrətlə gözlədiyi savaş idi:**

"Ona görə də Azərbaycan xalqı həsrətində olduğu bu müharibəni sevinclə qarşıladı və dünyanın yeganə xalqı olaraq müharibəni öz şəxsi mübarizəsi hesab etdi. Odur ki, müharibə faktiki ölüm, qan, faciə olsa da Azərbaycan xalqı özünü təsdiq etmək üçün ölümün üzərinə gedib zəfər qazandı. Azərbaycanın apardığı bu müharibədə özünü hərb elminin özəyi, dünya gücü hesab edənlərə dərs verdi, XXI-ci əsr müharibə formulunu yaşayaraq dünyaya ilk nümunə göstərdi".

Ekspert hesab edir ki, müharibənin 27 sentyabrda başlaması əlverişli geosiyasi vəziyətin yetişmə tarixidir və əlbəttə ki, Azərbaycan polittexnoloji konbinasiyaları ilə nəticə olaraq 27 sentyabrda müharibənin başlanma şəraitini özü yaratdı.

V.Dadaşov müharibə dövründə Azərbaycana qarşı dünya ermənipərəst qüvvələrinin hərəkətə keçməsinin nəticəsiz qalması məqamına diqqət çəkib:

"Əlbəttə ki, Azərbaycan bütün mümkün təzyiqləri əvvəlcədən hesablayıb onları əhəmiyyətli dərəcədə zərərsizləşdirə bildiyindən düşmən Azərbaycandan istədiyini ala bilmədi. BMT TŞ-yə, hətta Azərbaycan əleyhinə çıxarılacaq qətnaməni Böyük Britaniya tərəfindən bloklanması da sözsüz ki, qabaqcadan ən son variant kimi mövcud idi. İran, Fransa, Rusiya kimi ölkələr mümkün dərəcədə Azərbaycana zərbə vurmağa çalışsa da, uğursuzluğa məruz qaldı. Azərbaycan Prezidenti Ali Baş Komandanın uyğun vaxtında müharibə əmri verməsi qələbənin yarısına bərabər amildir.

Müharibədən sonra Laçın dəhlizinin nəzarətə götürülməsi və "koridor" anlayışının məhvi sərhədlərimizin tam olaraq qapadılması 3 illik müddətin ən mühüm siyasi nəticəsidir". Ekspert Vətən müharibəsinin ildönümü ərəfəsində sentyabr ayının 19-da Azərbaycanın lokal antiterror tədbirlərinə başlamasını da 27 sentyabr müharibəsinin son mərhələsi adlandırır:

"Azərbaycan antiterror tədbirlərini dayandırmaq üçün şərtlərini açıqlayıb, qısası, separatçı rejim təslim olmalı, özünü buraxmalıdır. Sözsüz ki, Azərbaycan niyyətinə qısa müddətdə nail olacaq. Azərbaycanın başladığı antiterror tədbirləri Ermənistanda Paşinyan hakimiyyətinə çox böyük təhlükə yarada bilər, hansı ki, Rusiya buna olduqca maraqlıdır. Əgər Paşinyanı xalqın özü devirırsə, rusiyayönümlü liderin hakimiyyətə gəlməsi mümkün deyil, əksinə, millətçi, yaxud qərbyönümlü lider hakimiyyətə gələ bilər. Yox, əgər Rusiya Paşinyanın devrilməsini özü həyata keçirərsə, onda mümkündür ki, rusiyayönümlü lider hakimiyyətə gətirilsin.



**Vüqar Dadaşov,**
Hüquqşünas, siyasi ekspert

Azərbaycanın başladığı lokal antiterror tədbirləri nəinki Qarabağda separatçı rejimi məhv edir, Ermənistanın bir dövlət olaraq fiziki məhvi ehtimalını artırır, Paşinyan hakimiyyətinin taleyini müəyyən edir. Bu əməliyyatın Cənubi Qafqazda ən vacib siyasi nəticələr yaradacağı şübhəsizdir".

✍ ***Tahirə Qafarlı***



■ **Naxçıvan şəhərində 20 min azarkeş tutumu olan stadion köçürüləcək. Bu, Baş nazir Əli Əsədovun sərəncamı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda əksini tapıb.**

Plana əsasən, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Gənclər və İdman Nazirliyi ilə birgə 2023-cü ildə stadionun yerində asudə vaxtın təşkili ilə bağlı kompleksin layihələndirmə işlərini həyata keçirməlidir. Eyni zamanda, 2023-2024-cü illərdə Naxçıvan şəhərində böyük yaşayış komplekslərinin həyətində, parklarda və əhalinin sıx yaşadığı məhəllələrdə insanların idmanla məşğul olması, asudə vaxtın səmərəli təşkili məqsədilə sadə tipli açıq hava idman qurğularının qurulması təmin ediləcək.



■ **Azərbaycan Mərkəzi Bankı (AMB) 2023-cü il üzrə cari əməliyyatlar balansının profisiti ilə bağlı proqnozunu açıqlayıb. Bu barədə AMB xəbər verir.**

Bildirilib ki, xarici mühitin əlverişli olaraq qalması valyuta bazarında tarazlığın dəstəklənməsində xüsusi rol oynayıb. 2023-cü ilin yanvar-iyun ayları ərzində tədiyə balansının cari əməliyyatlar hesabının profisiti 5.2 mlrd. ABŞ dolları və ya ÜDM-in 14.5% səviyyəsində olub. 2023-cü ilin sonuna baza ssenari üzrə cari əməliyyatlar hesabında ÜDM-in təxminən 15%-i həcmində profisit proqnozlaşdırılır.

"Profisitli tədiyə balansı və dedollarlaşma proseslərinin davam etməsi şəraitində valyuta bazarında təklif tələbi kəskin üstələyir.



■ **Yüksək neft qiymətləri 2023-cü ilin birinci rübündə Azərbaycanın cari əməliyyatlar hesabını ÜDM-in 10%-nə bərabər profisitə gətirib çıxarıb.**

Bu barədə Asiya İnkişaf Bankının (AİB) hesabatında bildirilib. Bununla belə, əmtəə ticarəti profisiti 2022-ci ilin birinci rübündəki 5.4 milyard dollardan bir il sonra idxalın artması ilə 4.7 milyard dollara qədər azalıb. Beləliklə, idxal 40.5% artdığı halda, neft ixracı isə 10.4% azalıb. Qeyd edilib ki, Azərbaycanın ixrac həcmi "OPEC+"-la razılaşdırılmış kvotadan aşağı olub. "Cari əməliyyatlar balansının profisitdə qalacağı proqnozlaşdırılır ki, bu da OPEC+ alyansının təklifi sərtləşdirməklə neftin qiymətini artırmaq qərarını əks etdirir"- AİB əlavə edib.




■ **Ötən gün keçirilən hərracların bağlanışında Avropada qazın 1 000 kubmetrinin qiyməti 410 ABŞ dollarını ötüb.**

19 sentyabr tarixində oktyabr fyuçerslərinin qiyməti TTF (Niderlandın "Title Transfer Facility"i - Avropanın ən likvid virtual satış mərkəzi) indeksi üzrə 412,6 dollar təşkil edib, bu da öncəki hesablama qiyməti (381,4 dollar) ilə müqayisədə 8,2% çoxdur. Xatırladaq ki, ötən ilin 7 mart tarixində gün ərzində Avropada qazın qiyməti bir neçə dəfə rekord vuraraq maksimum 3 900 dollaradək yüksəlib. Qeyd edək ki, 2021-ci ilin dekabrın 31-dən Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə Avropaya Azərbaycan qazının nəqlinə başlanılıb.



■ **Prezident İlham Əliyev müasir dövrün görkəmli siyasətçisidir, Paşinyan isə uğursuzdur. Bunu sosial şəbəkədə Xəzər Strateji Araşdırmalar İnstitutunun (HASEN) baş direktoru İqor Korotçenko yazıb.**

"Qısacası, başqa cür ola da bilməzdi. Bu istənilən obyektiv analitikə məlum idi", - HASEN-in baş direktoru qeyd edib. Korotçenko vurğulayıb ki, BMT-nin Təhlükəsizlik Şurasının Qarabağdakı vəziyyətlə bağlı iclası artıq heç nəyi dəyişməyəcək. De-yure və de-fakto Qarabağ Azərbaycandır. Artıq həmişəlik. Reallıq budur.Onun sözlərinə görə, Rusiya ilə Azərbaycan arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanması və qüvvədə olması faktı mühüm əhəmiyyət kəsb edir.



■ **2023-2024-cü illərdə Naxçıvan Muxtar Respublikasında - Batabat gölünün yaxınlığında və Ordubadda Tematik Parkların yaradılması nəzərdə tutulur.**

Bu, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planında nəzərdə tutulub. Sənədə əsasən, bu məsələ ilə bağlı icraçı qurum Dövlət Turizm Agentliyidir. Bundan başqa, muxtar respublikada turizm növlərinin inkişafına dair layihələrin, həmçinin dağ cığırları əsasında piyada marşrutlarının (hiking route) xəritələrinin, turizm üçün əlverişli yaşayış məntəqələrinin qiymətləndirilməsi, qış, kənd və ekoturizm üzrə layihələrinin və Ağbulaq massivində qiymətləndirmə işlərinin aparılması, yay-qış turizm kompleksinin yaradılması planlaşdırılır.

# Dərmanlar ucuzlaşacaq



***Məlum olduğu kimi, bu yaxınlarda Tarif Şurasının iclasında hazırkı vaxtadək təsdiq edilmiş bütün dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin yuxarı hədd olaraq tətbiq edilməsi barədə qərar qəbul edilib. Bu qərar sentyabrın 15-dən qüvvədədir. Qeyd edək ki, sözügedən qərar qəbul olunanadək dərman vasitələri üçün vahid qiymət tətbiq olunurdu və bütün apteklərdə dərman vasitələri həmin vahid qiymətə satılırdı. İndi isə həmin vahid qiymətlər yuxarı hədd olaraq təsdiq edilib, yəni dərmanlar təsdiq olunmuş qiymətlərdən aşağı qiymətə satıla bilər.***

“

*Bu qərar vətəndaşların dərmanlara əlçatanlığının artırılması baxımından vacibdir*

*Əgər əvvəllər bir dərman 10 manata satılırdısa, indi 9-9,50 manat civarında satışı həyata keçirilə bilər*

## Qərar



**Eyyub Kərimli,**
iqtisadçı ekspert

Yeri gəlmişkən xatırladaq ki, Prezident İlham Əliyevin 15 avqust 2023-cü il tarixli Fərmanı ilə “Dərman vasitələri haqqında” Qanunda və bu Qanunun tətbiqi barədə Fərmanda dəyişiklik edilib. Bu dəyişikliklərlə dərman vasitələrinə əlçatanlılığın təmin olunması, çeşid sayının, keyfiyyətə nəzarətin artırılması və daha aşağı qiymətə satılması məqsədilə tələblər müəyyənləşdirilib, bununla əlaqədar olaraq aidiyyəti qurumlara bir sıra məsələlərin yaxın zamanlarda həlli tapşırılıb. Tarif Şurasının bu qərarı məhz həmin dəyişiklikdən irəli gələrək qəbul edilib.

Proqnozlara görə, qəbul edilmiş qərar dərman vasitələrinə əlçatanlığın yaxşılaşdırılmasına, bu sahədə daha əlverişli rəqabət mühitinin yaradılmasına və əhali tərəfindən dərman vasitələrinin tənzimlənmiş qiymətlərdən aşağı qiymətə alınmasına imkan verəcək.

■ **Mövzu ilə bağlı iqtisadçı ekspert Eyyub Kərimli bildirib ki, bu addım müxtəlif qiymət intervalının yaranmasına səbəb olacaq: “Artıq dərman vasitələrinə aid qiymətlərin yuxarı həddi tənzimlənib və bunun da gələcəkdə dərman bazarında təbii rəqabətin formalaşmasına müəyyən müsbət təsirləri olacaq.** Belə ki, əvvəllər dərman vasitələrində vahid qiymət sistemi var idi və bütün apteklər adı çəkilən vasitələri eyni qiymətə satırdı. Bu da həm sahibkarlar arasında rəqabət mühitinin olmamasına, eyni zamanda, həvəsləndirici tədbirlərin yoxluğuna gətirib çıxarırdı. Digər tərəfdən, bu faktor bəzi dərmanların qıtlığına səbəb olurdu. Buna səbəb də sahibkarların həmin dərmanları ölkəyə gətirmək istəyinin olmamasıyla bağlı olurdu. Beləliklə, satış problemləri yaranırdı.İndi isə həm topdan satış depolarında, həm pərakəndə satış apteklərində qiymətlərin yuxarı həddi tənzimlənir. Bu da öz növbəsində müxtəlif qiymət intervalının yaranmasına səbəb olur. Nəticədə əhalinin daha ucuz qiymətlərlə dərman alışı üçün şərait yaranacaq. Əgər əvvəllər bir dərman 10 manata satılırdısa, indi 9-9,50 manat civarında satışı həyata keçirilə bilər. Həm də bu topdan satış qiymətlərinə də müəyyən təsirləri olacaq və qiymət intervalı tələb-təklif əsasında müəyyənləşdiriləcək”.

■ **Məsələyə münasibət bildirən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vüqar Bayramov da qeyd edib ki, Tarif Şurasının dərman vasitələrinin qiymətlərinin yuxarı həddini t?sdiq etm?si <http://www.tariff.gov.az/?/az/resolution/view/259/> ilə ölkədə dərman vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi və qiymətlərin optimallaşdırılması nəzərdə tutulur:** ”Bu qərar vətəndaşların dərmanlara əlçatanlığının artırılması baxımından vacibdir, insanların daha ucuz dərman almasına səbəb olacaq, eyni zamanda, əvvəlki dövrlərdə tapılmayan və qıt hesab edilən dərmanların artıq optimal qiymətə apteklərdə satılmasına imkan verəcək”.



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

Deputat vurğulayır ki, dərman preparatlarının qiymətlərinin tənzimlənməsi, keyfiyyətin artırılması uzun müddət diqqət mərkəzində olub: ”Dövlət başçısının müvafiq fərmanı ilə “Dərman vasitələri haqqında” qanuna edilmiş dəyişikliklərlə 13 dövlət qurumunun təmsil olunduğu Tarif Şurasına dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin yuxarı həddinin təsdiq edilməsi tapşırılmışdı”.

Onun fikrincə, dərman bazarı vətəndaşların ən çox müraciət etdiyi bazarlardan biri olduğu üçün burada qiymətlərin optimallaşdırılması və bəzi məhsullar üzrə ucuzlaşma, eyni zamanda keyfiyyətin artırılması sosial təminat baxımından önəmlidir: “Nəticədə vətəndaşların dərman xərcləri azalacaq. Bu isə ümumilikdə ailələrin xərclərini azaldacaq.

Bu qərar sosial xarakter daşıyır, vətəndaşlarımızın sosial təminatına dəstək kimi qiymətləndirilməlidir”.

***Sevinc***



# Hansı avtomobillərə maraq daha çoxdur?

***Son bir ildə Azərbaycana idxal olunan avtomobillərin sayı artıb. Belə ki, statistik məlumatlara görə, bu ilin yanvar-avqust aylarında Azərbaycana 1 068,364 milyon ABŞ dolları dəyərində 65 726 ədəd müxtəlif təyinatlı avtomobil idxal olunub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 62,4 faiz və 33,5 faiz çoxdur. İlk 8 ayda sürücü daxil olmaqla, 10 nəfər və yaxud daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələrinin idxalı 4,1 dəfə azalaraq 81 ədəd (5,492 milyon ABŞ dolları dəyərində), əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələrinin idxalı isə 33,8 faiz artaraq 60 922 ədəd (964,582 milyon ABŞ dolları dəyərində) təşkil edib.***

“

*Bu sahədə son vaxtlar əsas artım elektrik və hibrid avtomobillərin idxalında müşahidə olunur*

*Bazarda doyma halı baş verdikcə, bu sahədə də stabillik müşahidə olunacaq*

## İstehlak

Bu avtomobillərin 9 640-sı (222,364 milyon ABŞ dolları dəyərində) daxili yanma mühərriklə yanaşı, elektrik mühərriklə də hərəkətə gətirilən nəqliyyat vasitələri, 1 803-ü (74,136 milyon ABŞ dolları dəyərində) isə yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələridir. Bu isə birincinin 17,4 faiz, ikincinin isə 6,8 dəfə artması deməkdir.

Bundan əlavə, yük daşımaq üçün mühərrikli nəqliyyat vasitələrinin idxalı 40 faiz artaraq 4 483 ədəd (70,919 milyon ABŞ dolları dəyərində), xüsusi təyinatlı motorlu nəqliyyat vasitələrinin idxalı isə 23,1 faiz artaraq 240 ədəd (27,371 milyon ABŞ dolları dəyərində) olub. Bəs, görəsən, ölkəyə idxal olunan avtomobil sayının və bu istiqamətdə xərclərin artmasına səbəb nədir? Bu avtomobil bazarına necə təsir göstərəcək?

■ **Mövzu ilə bağlı iqtisadçı ekspert Pərviz Heydərov bizimlə söhbətində bildirib ki, bu sahədə son vaxtlar əsas artım elektrik və hibrid avtomobillərin idxalında müşahidə olunur:** “Məlumdur ki, hökumət hibrid avtomobillərin ölkəyə gətirilməsi ilə bağlı bir sıra stimullaşdırıcı addımlar atıb. Bir məsələni də unutmamalıyıq ki, əvvəlki illərlə müqayisədə son illər avtomobil idxalı ilə bağlı xərclər artıb. Məsələn, motor həcminə görə rüsumlar artırılıb, 10 ildən çox istismar müddəti olan avtomobillərin ölkəyə idxalının məhdudlaşdırılıb və s. Bu qərardan sonra Azərbaycana gətirilən, istehsal tarixi yeni və baha olan avtomobillərin sayı çoxaldı. Bütün bunlar avtomobilin dəyərini artıran amil rolunda çıxış edir”.

■ **Məsələyə münasibət bildirən iqtisadçı ekspert Əli Əlirzayev qeyd edib ki, bu gün ölkədə olan avtomobillərin əksəriyyətinin istehsal tarixi 10 ilin üzərindədir:**

“Əgər biz bu sahədə vəziyyətin müsbətə doğru dəyişməsini istəyiriksə, təşviq proqramlarını artırmalı, gömrük rüsumları və vergi dərəcələrinə yenidən baxmalıyıq. Bu gün hibrid avtomobillərə maraq var.

Hökumət bu istiqamətdə təşviqedici addımlar atıb. Bu istiqamətdə xərclərin artmasına əsas səbəb logistika xərclərinin artmasıdır. Eyni zamanda, bazarda avtomobillərə tələbat var. Təbii ki, elektrik və hibrid avtomobillərinin idxalında olan artım, taksi fəaliyyətinə marağın çoxalması, əhalinin müəyyən bir qisminin bu fəaliyyətlə məşğul olması, dünya miqyasında və ölkəmizdə baş verən iqtisadi amillər bu sahədən yan keçə bilməzdi. Bazarda doyma halı baş verdikcə, bu sahədə də stabillik müşahidə olunacaq”.

***Sevinc***

# Bahalaşan taksilər, gecikən avtobuslar

**Məlum olduğu kimi, Azərbaycanda taksi fəaliyyəti sahəsində ıslahatlara başlanılıb. Bu islahatlar nəticəsində əvvəlki aylarla müqayisədə taksilərdə gedişhaqqı bahalaşıb. Məsələn, əvvəl yaxın məsafələrə gedişhaqqı 0,80 qəpik-1 manat arası yazırdısa, indi eyni məsafəyə qiymətlər 2,50 manatdan başlayır. Bununla yanaşı, son günlər paytaxta parklanma yerlərinin də qiyməti bahalaşıb. Artıq sürücülər parklanma qiymətini zonalara uyğun ödəyirlər.**

“

*Taksilərdə gedişhaqqı bahalaşsa da, ictimai nəqliyyat vətəndaşlar üçün hələ də əlverişli deyil*

*Rəsmi qurumlar elan ediblər ki, bu istiqamətdə dəyişikliklər oktyabrın 1-dən sonra mərhələli şəkildə həll ediləcək*



Maraqlıdır, görəsən paytaxta həm taksi qiymətlərinin, həm parklanma yerlərinin bahalaşması ictimai nəqliyyatda daşımalara necə təsir göstərib? Yeri gəlmişkən, 2023-cü ilin yanvar-iyun aylarında Azərbaycanda nəqliyyatçılar 894,4 milyon sərnişinə xidmət göstəriblər. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, sərnişinlərin 87,3 faizi avtomobil nəqliyyatı, 12,2 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınıb. Nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan avtomobil nəqliyyatı ilə 781,1 milyon sərnişin daşınıb və əvvəlki ilin eyni dövrü ilə müqayisədə 17,3 faiz artım qeydə alınıb. Sərnişinlərin 95,2 faizi avtobus, 4,8 faizi isə minik taksilərinin xidmətlərindən istifadə edib, sərnişin dövriyyəsi 17,5 faiz artıb. Hava nəqliyyatı ilə isə 1233,3 min və ya 49,5 faiz çox sərnişin daşınıb, daşımaların 99,8 faizi dövlət, 0,2 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilib.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən nəqliyyat məsələləri üzrə ekspert Yasin Mustafayev deyib ki, taksilərdə gedişhaqqı bahalaşsa da, ictimai nəqliyyat vətəndaşlar üçün hələ də əlverişli deyil: “Bu gün ictimai nəqliyyatın ən böyük problemi gecikmələrdir.** Avtobus gec gəldiyi zaman yüklənmə çox olur. Məsələn, 10 dəqiqədə 2 avtobus gəlməlidirsə, biri gəlir. Belə olduqda sərnişin sayı da 2 dəfə çoxalır. Bu da sıxlığın yaranmasına və narazılığa səbəb olur.

Etiraf etməliyik ki, avtobusların hazırkı texniki vəziyyəti normaldır. Çoxu yeni alınıb, təchizatı yaxşıdır, rahatdır. Daşıyıcı şirkətlər arasında rəqabət olduğu üçün müasir avtobuslar almaq, daha yaxşı xidmət göstərmək səylərini görürük. Amma bu yetərli deyil. Bunun üçün səylər daha da artırılmalıdır. Məsələn, abtobuslarda gecikmələrin olması sərnişinlərin bu nəqliyyat vasitəsindən imtinası deməkdir. Düzdür, bu kütləvi xarakter daşımasa da, belə hallar var”.

■ **Mövzu ilə bağlı nəqliyyat eksperti Eldəniz Cəfərov isə deyib ki, bu məsələ ilə əlaqədar fikir bildirmək hələlik tezdir:** “Rəsmi qurumlar elan ediblər ki, bu istiqamətdə dəyişikliklər oktyabrın 1-dən sonra mərhələli şəkildə həll ediləcək. Ona görə hələlik bununla bağlı proqnoz vermək mümkün deyil”.

***Sevinc***

# COVID-ə yoluxma sürətlə artır

**Son günlər dünyada COVID-19-un yeni ştammlarının sürətlə yayılması müşahidə olunur. Bununla bağlı Ümumdünya Səhiyyə Təşkilatı da narahatlığını ifadə edib. Qurumun yaydığı məlumatına görə, son 1 ayda dünya üzrə yoluxanların sayı 38 faiz artıb. Avropada yoluxmaya artım 39, Sakit okeanın qərbində 52, Aralıq dənizinin şərqində isə 113 faiz təşkil edir. Yoluxmaların artmasına koronavirusun sonradan ortaya çıxan yeni variantlarının, xüsusən də eris olaraq bilinən Eg.5 və Pirola adlandırılan BA.2.86-nın səbəb olduğu qeyd edilir.**




## Cəmiyyət

Hazırda ABŞ-də COVID-ə yoluxma 2020-ci ilin ilk pandemiyasının statistikasına yaxınlaşır. ABŞ-də gündə 650 mindən artıq amerikalıda COVID aşkarlanır və yaxın aylarda ölkə əhalisinin 10 faizə yaxınının virusa yoluxacağı proqnozlaşdırılır.

Ölüm halları avqustla müqayisədə 5 faiz artıb. Son həftə ərzində ABŞ-də COVID-ə görə xəstəxanaya yerləşdirilənlərin sayı 8,7 faiz, ölüm halları isə 4,5 faiz artıb. ABŞ Federal Səhiyyə Təşkilatı amerikalıları COVİD-19-a qarşı vaksin olunmağı tövsiyə edib.

Almaniya, Fransa, Koreya, İtaliya, Böyük Britaniya, Avstraliya və Sinqapurda da yoluxma sayında kəskin artım qeydə alınıb. Almaniyada gündəlik yoluxmaların sayının son dörd həftə ilə müqayisədə iki dəfə artdığı açıqlanıb. Almaniyada eris və digər alt variantlara qarşı təsirli olduğu iddia edilən yenilənmiş peyvəndlər bu gündən etibarən tətbiq olunmağa başlasa da, Fransada peyvənd kampaniyası 2 həftə erkənə alınıb. Fransadakı peyvənd kampaniyasında ilkin olaraq XBB.1.5-ə uyğunlaşdırılmış yeni Pfizer peyvəndi istifadə ediləcək. O cümlədən, Latviyada yayda test nəticələrinin 5-10% pozitiv olduğu halda, hazırda bu rəqəm artıq 25 faizə yaxınlaşır.

Ölkə əhalisinə bir həftə evdə qalmaq və digər şəxslərlə kontakt qurmamaq, küçəyə çıxan zaman isə respiratorlardan istifadə tövsiyə olunur. Rusiyanın Altay vilayətində COVID-ə yoluxma artdığına görə 49 məktəbdə karantin məhdudiyyətləri tətbiq olunub, 6 məktəb isə ümumiyyətlə karantinə bağlanıb. "Suqruntenfqaz"da yenidən maska rejiminə keçid müzakirə olunur. ÜST risk zonasında olanlar, əsasən, immuniteti aşağı olan yaşlı təbəqəni revaksinasiya olmağa çağırır.

Xatırladaq ki, Ümumdünya Səhiyyə Təşkilatı mayın 18-də vaksinlərin dominant XBB.1 ştammlarına uyğunlaşdırılmasını tövsiyə edib. Avropa bazarlarında XBB.1.5-i hədəf alan üç yeni vaksin hazırlanıb. Avropa Səhiyyə Agentliyi sentyabrın 1-də BioNTech-Pfizer-in RNT peyvəndinin Avropada marketinq icazəsini təsdiqləyib. Modernanın oxşar peyvəndi də sentyabrın 15-də təsdiqini alıb. Novavax-dan zülal əsaslı peyvənd isə hələ qiymətləndirilmə mərhələsindədir. Avropa Səhiyyə Agentliyi qeyd edir ki, hər üç peyvənd ümidverici effektivlik əlamətləri göstərir. Bəs, görəsən, bununla bağlı Azərbaycanda vəziyyət necədir? Bu virusla əlaqədar qaydalar yenidən sərtləşdirilə bilərmi?

> "Bütün respirator infeksiyalardan qorunma tədbirləri eynidir



**Nəzrin Mustafayeva,**
TƏBİB-in Yoluxucu xəstəliklər və infeksion nəzarətin təşkili şöbəsinin müdiri

Qeyd edək ki, koronovirusun yeni ştammı ilk dəfə bu ilin fevralında qeyd alınıb. Onun bu gedişlə daha sürətlə yayılması, ölkəmizə çatması da istisna olunmur. Hazırda Azərbaycanda yoluxma səviyyəsi aşağı olsa da, son 1 həftədə artım müşahidə olunur. Belə ki, Azərbaycanda son 1 həftə ərzində (11-17 sentyabr) koronavirus (COVID-19) infeksiyasına 142 yeni yoluxma faktı qeydə alınıb. Bu müddətdə COVID-19-a yoluxan 127 nəfər sağalıb. İndiyədək ölkədə ümumilikdə 832 580 nəfərin xəstəliyə yoluxması faktı müəyyən edilib, onlardan 822 131 nəfər müalicə olunaraq sağalıb, hazırda 147 aktiv xəstə var. Bu günə qədər 10 302 nəfər vəfat edib. Məlumata görə, son həftə ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3 012, bu günə qədər isə ümumilikdə 7 680 488 test icra olunub. Eyni zamanda ölkədə son həftə ərzində 223 nəfər vaksinasiya olunub. Lakin hələlik Azərbaycanda koronavirusun "Eris" variantının yayılması barədə rəsmi məlumat yoxdur. Bu barədə Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Vasif Əliyev deyib ki, COVID-19-un yeni ştammı, həmçinin qrip, digər respirator infeksiyalar nisbətən yüngül formada keçdiyindən xəstələr əksər hallarda test vermək üçün xəstəxanaya və poliklinikalara müraciət etmirlər, ev şəraitində simptomatik müalicə alırlar: "Hazırda qonşu ölkələrdə COVID-19-un yeni variantı aşkarlanıb. COVID-19-un yeni ştammi, həmçinin qrip, digər respirator infeksiyalar nisbətən yüngül formada keçdiyindən xəstələr əksər hallarda test vermək üçün xəstəxanaya və poliklinikalara müraciət etmirlər, ev şəraitində simptomatik müalicə alırlar".

Bu isə öz növbəsində belə infeksiyalara yoluxmuş insanların rəsmi qeydiyyata alınmasını çətinləşdirir. Vətəndaşlarımıza bildirmək istərdim ki, bütün respirator infeksiyalardan qorunma tədbirləri eynidir. Sanitar və gigiyenik qaydalara riayət edilməsi vacibdir. Bura sosial məsafənin gözlənilməsi, xəstə insanın ev şəraitində izlənilməsi, əl təmizliyi kimi qaydalar və.s. aiddir".

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) də COVID-19-un alt variantı olan və "eris" kimi tanınan virusla bağlı əhaliyə xəbərdarlıq edib.

■ **TƏBİB-in Yoluxucu xəstəliklər və infeksion nəzarətin təşkili şöbəsinin müdiri Nəzrin Mustafayeva qeyd edib ki, artıq bir neçə aydır COVID-19-un alt variantı olan EG.5 - elmi ədəbiyyatda həm də "Eris" kimi tanınan virus son zamanlar bütün dünyada sürətlə yayılmaqdadır.**

O vurğulayıb ki, xüsusilə, ABŞ, Çin, Böyük Britaniya və Avropanın digər ölkələrində yeni yoluxmalara və yoluxma saylarında artıma səbəb olub: "Bu hal ilk dəfə deyil, daha öncə də COVID-19-un digər ştamlarında qeydə alınıb. Tendensiya onu göstərir ki, hər bir yeni yaranmış ştam özündən öncəki ştamdan daha yüngül simptomlara malik olur. Lakin yeni ştamların yoluxduruculuq qabiliyyəti əvvəlkilərdən yüksək olması ilə fərqlənir. Bu isə qısa zamanda kütləvi yoluxmalara səbəb olur".

Hazırda Azərbaycanda COVID-19 xəstəliyinin yeni ştamına yoluxma hallarına rast gəlinmədiyini xatırladan TƏBİB rəsmisi deyib ki, insanların böyük əksəriyyəti COVID-19 xəstəliyini artıq keçirib və sağalıb:

"Ölkədə peyvəndlənmə faizi də qənaətbəxş hesab ediləcək səviyyədədir. COVID-19-un alt variantı olan EG.5-ə qarşı xüsusi peyvənd növünün hazırlanması və xüsusi peyvəndlənmə prosesinin başlanılması barədə beynəlxalq protokollarda tövsiyələr mövcud deyil. Hər zaman olduğu kimi, COVID-19-un bütün ştamlarına qarşı risk qrupuna daxil olan şəxslər daha diqqətli olmalıdırlar. Risk qrupuna yanaşı və xroniki xəstəlikləri olanlar, peyvənd olunmayan şəxslər daxildir".

*✍ Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin AÇIQLAMASI



Dörd il əvvəl Baş nazir postundan gedən Novruz Məmmədov vəzifədə olduğu illərlə, çalışdığı qurumla bağlı müsahibə verib. "R TV" internet kanalına danışan keçmiş Baş nazirin sözlərinə görə, heç bir zaman vəzifə xiffəti çəkməyib: "Mən vəzifədə olanda, hətta qarşımda diz çöküb mənimlə əlaqə qurmaq istəyənlər olub. Onlardan bəziləri indi də vəzifədədirlər. Mənə "xahişə gələnlər" az idi, çünki bilirdilər ki, elə işlərlə məşğul olmuram. Pul müqabilində "müxtəlif işlər" görənləri işdən çıxarmışdım".

### Həftənin ETİRAZI



Nyu-Yorkda keçirilən BMT Baş Assambleyasının 78-ci sessiyasında gərgin anlar yaşanıb. Hadisə İran Prezidenti İbrahim Rəisinin çıxışı zamanı baş verib. Belə ki, bu vaxt İsrailin səfiri Eridan Məhsa Əmininin şəklı olan plakat qaldırıb. Qeyd edək ki, Məhsa Əmini 2022-ci ilin sentyabrında İranda əxlaq polisi tərəfindən zorakılığa məruz qalıb və bir neçə saatdan sonra xəstəxanada vəfat edib.

### Həftənin GÖRÜŞÜ



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan amerikalı milyarder İlon Maskla görüşüb. Görüş Nyu-Yorkda fəaliyyət göstərən "Türk Evi"ndə baş tutub. Məlumata görə, görüş zamanı Ərdoğan İlon Maska "Tesla" şirkətinin 7-ci zavodunu Türkiyədə yaratması üçün çağırış edib. Bununla yanaşı, Türkiyə lideri Maskı İzmir şəhərində keçiriləcək "Teknofest"ə də dəvət edib. Görüş mətbuata qapalı keçirilib. Milyarder Ərdoğanla görüşə oğlu ilə birlikdə gəlib. Türkiyə Prezidenti Maska "Daha ədalətli dünya mümkündür" və "BMT islahatı: beynəlxalq əməkdaşlığa yeni yanaşma" kitablarını, oğluna isə futbol topu hədiyyə edib.

### Həftənin MƏĞLUBİYYƏTİ



Azərbaycanın daha üç qadın güləşçisi Serbiyanın paytaxtı Belqradda keçirilən lisenziya xarakterli dünya çempionatında yarımfinala yüksələ bilməyib. 50 kq çəki dərəcəsində çıxış edən titullu idmançı Mariya Stadnik 1/4 finalda ABŞ təmsilçisi Sara Ann Hildebrandta uduzub. 57 kq-da Jalə Əliyeva eyni mərhələdə digər ABŞ idmançısı Helen Maroulisə yenilib. 65 kq-da Birgül Soltanova 1/8 finalda türkiyəli Kadriye Aksoya məğlub olub.

### Həftənin XANIMI



Təyyarə qəzasında həlak olan "Vaqner" özəl hərbi şirkətinin təsisçisi Yevgeni Priqojinin həyat yoldaşı şəxsiyyət vəsiqəsində məlumatlarını yeniləyib. Priqojinin həyat yoldaşı öz qızlıq soyadına qayıdaraq məlumatlarını Kryajeva Lyubov Valentinovna olaraq dəyişdirib. Bildirilir ki, portal dəyişiklik barədə məlumatı sentyabrın 15-i əldə etsə də, bunun konkret olaraq nə vaxt baş verdiyi məlum deyil.

### Həftənin REKORDU



Rejissor Kristofer Nolanın "Oppenheimer" bioqrafik filmi kino tarixində öz janrında ən çox gəlir gətirən film olub. Ekran işinin kassa gəliri 912,7 milyon dollar təşkil edir. Daha əvvəlki rekord "Bohemian Rhapsody" filminə məxsus idi (910 milyon dollar). "Oppenheimer", həmçinin 2023-cü ildə və Kristofer Nolanın karyerasında ən gəlirli üçüncü film olub.

*✍ Azad Əliyev*



# "Nar"dan əla fürsət: Köhnə smartfonunu sərfəli şərtlərlə sat!

R

**İndi siz köhnə smartfonunuzu "Nar" mağazalarında sərfəli qiymətə və rahat şəkildə sata bilərsiniz. "Nar" mağazasında telefonunuzun dəyərləndirilməsi xüsusi tətbiq vasitəsilə, şəffaf və sürətli aparılır.**

Tətbiq bir çox parametrlər üzrə smartfonunuzu yoxlayır və müvafiq qiyməti təyin edir. Smartfonunuzu elə yerindəcə təyin olunmuş qiymətə təhvil verə və ödənişinizi dərhal əldə edə bilərsiniz. Üstəlik, xidmətdən yararlanan hər bir "Nar" abunəçisi 30GB-dək internet bonusu əldə edəcək. Bu xidmət Türkiyənin "EasyCep" şirkətilə "Nar"ın əməkdaşlığı çərçivəsində həyata keçirilir.

Beləliklə, "Nar" Azərbaycanda işlənmiş telefonların alışını rəsmi şəkildə həyata keçirməyə başlayan ilk mobil operator oldu. Telefonunuzu sərfəli şəkildə satmaq üçün "Nar"ın Bakı, Sumqayıt və Xırdalan şəhərlərində yerləşən 19 eksklüziv diler mağazalarından birinə yaxınlaşmaq kifayətdir.

Qeyd edək, "EasyCep" Türkiyənin ən böyük yenilənmiş elektronik cihaz satış şəbəkəsidir. Şirkət mobil telefon, planşet, noutbuk və bənzər cihazların sahibindən satın alaraq yenilənmiş şəkildə və zəmanətlə şatışını həyata keçirir. "Nar" və "EasyCep" şirkətləri arasında əməkdaşlıq müştərilərinə müxtəlif xidmətləri bir mərkəzdən göstərmək və üstün müştəri təcrübəsini təmin etmək məqsədi daşıyır.




"Nar" hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidməti göstərir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkənin lider mobil operatorudur. Mobil operator müştəri yönümlü strategiyaya sadiqdir və sərfəli qiymətə əla xidmət təklif edir.


## GÜNÜN FOTOSU



ABŞ-Meksika sərhəddində ölümlə üzləşənlər

"

# Dərmanlar ucuzlaşacaq

**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

Əgər əvvəllər bir dərman 10 manata satılırdısa, indi 9-9,50 manat civarında satışı həyata keçirilə bilər.

▸▸ Səh. 7

## STATİSTİKA



■ **Azərbaycan Mərkəzi Bankı (AMB) 2023-cü ilin sonuna baza ssenari üzrə cari əməliyyatlar balansında (CƏB) ümumi daxili məhsulun (ÜDM) təxminən 15 %-i qədər profisit proqnozlaşdırır.**

"Xarici mühitin əlverişli olaraq qalması valyuta bazarında tarazlığın dəstəklənməsində xüsusi rol oynayıb. 2023-cü ilin yanvar-iyun aylarında tədiyə balansının cari əməliyyatlar hesabının profisiti 5,2 milyard ABŞ dolları və yaxud ÜDM-in 14,5 %-i qədər olub. Profisitli tədiyə balansı və de-dollarlaşma proseslərinin davam etməsi şəraitində valyuta bazarında təklif tələbi kəskin üstələyir", - deyə AMB bəyan edib.



▸▸ Səh. 7

# Hansı avtomobillərə maraq daha çoxdur?